## Laçın yolundan sülhməramlılara aid daha 2 minik avtomobili keçib



**Azərbaycanın qeyri-hökumət təşkilatları (QHT) nümayəndələrinin Qarabağda Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi zonada keçirdiyi etiraz aksiyası artıq on altıncı gündür ki, davam edir.**

Laçın-Xankəndi yolundan növbəti dəfə sülhməramlılara aid 2 minik avtomobili keçib.

*Qeyd edək ki, daha əvvəl erməni KİV saxta xəbərlər yayaraq azərbaycanlıların Laçın yolunu bağladıqlarını və təminat avtomobillərinin buraxılmadığını bildirirdilər.*

## Bayramdan sonra ilk dərs gününün vaxtı açıqlanıb

Yanvarın 4-ü altıgünlük, yanvarın 5-i beşgünlük məktəblərdə dərs olacaq



**"Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni İl bayramı" ilə əlaqədar 2022-2023-cü tədris ili üzrə təhsil müəssisələrində bayramdan sonra ilk iş (dərs) gününün vaxtı açıqlanıb.**

Elm və Təhsil Nazirliyindən bildirilib ki, beşgünlük müəssisələrdə 05 yanvar 2023-cü il; altıgünlük müəssisələrdə isə 04 yanvar 2023-cü il tarixidir.



# Daha sərt cəza

## Zorlanma faktına görə 20 ilədək həbs gözlənilir

**14 yaşına çatmayan şəxslərə qarşı zorlama, yeni zərərçəkmiş şəxsə və ya başqa şəxslərə qarşı zor tətbiq etməklə və ya belə zor tətbiq etmə hədəsi ilə və ya zərərçəkmiş şəxsin köməksiz vəziyyətindən istifadə etməklə onunla cinsi əlaqədə olanlar 20 ilədək azadlıqdan məhrum ediləcək.**

Bu, Milli Məclisin dünən keçirilən iclasında müzakirə edilən Cinayət Məcəlləsinə təklif edilən dəyişiklikdə əksini tapıb.

Layihəyə əsasən, zorlama aşkar surətdə on dörd yaşına çatmayan şəxs barəsində törədildikdə üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə on beş ildən iyirmi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılacaq.

*Qeyd edək ki, qüvvədə olan Məcəlləyə əsasən, həmin cinayəti törətmiş təqsirkar şəxs üçün aşkar surətdə on dörd yaşına çatmayan şəxs barəsində törədildikdə on ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Qanun layihəsi müzakirələrdən sonra üçüncü oxunuşda qəbul edilib.*


№ 238 (5759), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 28 dekabr 2022-ci il (çərşənbə)




## "Prezidentin tapşırıqları çoxdur"

Naxçıvanın yeni rəhbəri: "Onların qısa müddətdə həll edilməsi mümkün deyil, bir az vaxt lazımdır"

**Naxçıvanda qanundan kənar, kiminsə kefinə görə tətbiq edilən qadağaların hamısı ləğv olunacaq.**

Bu sözləri Naxçıvana yeni təyin edilmiş Prezidentin xüsusi nümayəndəsi Fuad Nəcəfli Real TV-yə açıqlamasında deyib.

Onun sözlərinə görə, Naxçıvandakı problemlər araşdırılır, Prezidentin tövsiyələrinə uyğun şəkildə məsələlərin həllinə çalışılır:

"Prezidentin tapşırıqları çoxdur. Onların qısa müddətdə həll edilməsi mümkün deyil, bir az vaxt lazımdır". Xüsusi nümayəndə bildirib ki, Ali Məclis öz fəaliyyətini davam etdirəcək: "Məclis qanunverici orqan, Xüsusi nümayəndəlik isə icra orqanı kimi fəaliyyət göstərəcək".

F.Nəcəfli bildirib ki, onun Naxçıvandakı gəzintisi planlanmış şəkildə olmayıb: "Bu zaman əhalidən yaxınlaşanlar oldu. Onlarla danışdıq, görüşdük. Mən xalqdan biriyəm və ona görə bu, adi bir axşam gəzintisi idi". "Xalqın istəklərinin ən ədalətli şəkildə həll olunması qarşımızda qoyulan əsas tələbdir ki, bu da olacaq", - o vurğulayıb.

## 380-i uşaq, 32 nəfər isə qadındır

Ötən il İraq və Suriyadan Azərbaycana 412 qadın və uşaq deportasiya edilib



**Ötən il İraq və Suriyadan Azərbaycana 412 nəfər deportasiya edilib.**

Bunu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial Xidmətlər Agentliyinin İdarə Heyətinin sədri Vüqar Behbudov ilin yekunlarına dair bu gün keçirilən mətbuat konfransında deyib. O bildirib ki, deportasiya olunanlardan 380-i uşaq, 32 nəfər isə qadındır.

Bu il adıçəkilən ölkələrdən 66 nəfər Azərbaycana deportasiya edilib ki, onlardan 64 nəfər sığınacaqda yerləşdirilib və sonradan ailələrinə qaytarılıb.

# Vardanyanla təmaslar heç vaxt olmayacaq

## Ceyhun Bayramov Ermənistana bir daha xəbərdarlıq edib



"Qanunsuz erməni silahlılarının Qarabağdan çıxarılmasını Ermənistan təmin etməlidir"

**"Azərbaycan 2022-ci il ərzində Prezident İlham Əliyevin rəhbərliyi altında milli maraqlara söykənən praqmatik, müsbət və açıq xarici siyasət həyata keçirib".**

Bunu xarici işlər naziri Ceyhun Bayramov bu ilin yekunlarına dair mətbuat konfransında deyib. Nazir bildirib ki, Azərbaycanın xarici siyasəti milli təhlükəsizlik və sosial inkişaf üçün əlverişli xarici mühitin yaranmasına yönəlib: "2022-ci il Azərbaycanla bir sıra xarici ölkələr arasında diplomatik münasibətlərin qurulmasının yubiley ili olub.

(səh.3)

# Nifrət artır...

## İran rejiminin isə geri çəkilmək niyyəti yoxdur



**İranda hakimiyyət əleyhinə olan etirazlar hələ də səngimir.** Rejim isə etirazçılara qarşı sərt cəzalar tətbiq edir. İranın hökumət mollaları etirazçılarla bağlı növbəti qorxunc qərarı veriblər. Onlar etirazçıların əl və ayaqlarının kəsilməsinə nail olmaq istəyirlər. "Azad İran" Teleqram" kanalının məlumatına görə, Qum Elmi-Dini Hövzəsinin Müəllimləri Birliyi, o cümlədən İranın şər rejimini dəstəkləyən bir qrup radikal molla İranda etirazları yatırtmaq üçün "İslam qanunlarına əsasən" etirazçıların əl və ayaqlarının kəsilməsini tələb edib.

(səh.6)



## Bülbülə gölünün ətrafında bulvar salınacaq

**Paytaxt Bakıda Bülbülə gölünün ətrafında bulvar salınması üçün abadlıq işləri aparılır.**

Bülbülə gölünün ətrafında yaşıl istirahət zonasının salınması nəzərdə tutulub. İlk növbədə, göl çirkab sulardan təmizlənir.

"Suyun təmizlənməsi üçün "Azərsu" ASC ilə birlikdə işlər aparılacaq. Birinci mərhələdə göl təmizləndikdən sonra ətrafında gəzinti, velosiped, skuterlər üçün yol salınması planlaşdırılır. İkinci mərhələdə isə yaşıllıq zonasının salınması nəzərdə tutulub", - qurumdan qeyd edilib.

## İlham Tumas xəstəxanaya yerləşdirildi

Tanınmış jurnalist, Qarabağ qazisinin səhhətində müəyyən problemlər yaranıb



**Tanınmış jurnalist, Qarabağ qazisi İlham Tumas xəstəxanaya düşüb. Hazırda Respublika Klinik Xəstəxanasının Nevrologiya şöbəsində müalicə alır.**

Məlumatı İlham Tumasın yaxın dostu Rey Kərimoğlu yayıb.

Onun dediklərinə görə, həmkarı çox kritik vəziyyətdə xəstəxanaya yerləşdirilib. Ardıcıl sudurqalar keçirib...

(səh.5)

## 2 nəfər vəfat edib

95 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 95 yeni yoluxma faktı qeydə alınıb, 101 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 2 nəfər vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 826 075 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 815 510 nəfər müalicə olunaraq sağalıb, 10 008 nəfər vəfat edib, aktiv xəstə sayı 557 nəfərdir.

*Ölkədə son sutka ərzində 2 438, hazırkı dövrədək isə 7 423 605 test aparılıb.*



## Valideynlər məktəbə hücum edirlər

Aqil Abbas: "Şagirdin əlindəki telefon müəllimin 4-5 aylıq maaşıdır"

(səh.4)



## Tələbə köçürmələri "Axilles dabanı"na çevrilib

Etibar Əliyev problemi qabartdı və çıxış yollarını göstərdi

(səh.6)

# Məqsədimizə çatmışıq

## Şəhər içində artıq şəhər var







**Bakı Ağ Şəhərin Mərkəzi Park Kvartalında bir sıra tikililər, avtomobil yolları və digər infrastruktur işləri tamamlanıb.**

**Dekabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kvartalda görülən işlərlə tanış olub, Bakı Ağ Şəhər Qarabağ Atları Kompleksinin təməlini qoyub.**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov və Bakı Ağ Şəhər layihəsinin icraçı direktoru Ruslan Sadıxov dövlətimizin başçısına Kvartalda görülən işlər barədə məlumat veriblər.

Bildirilib ki, Bakı Ağ Şəhərin Mərkəzi Park Kvartalında Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən müxtəlif ölçülü küçələrin salınması və yolaltı kommunikasiya infrastruktur işləri tamamlanıb. Bunlar əsasən Qarabağ Atları, 3-cü Şərq, 6-cı Park küçələri və bir sıra digər küçələrdir.

Bununla da artıq Ağ Şəhərin Xəqani Rüstəmov küçəsindən əlavə daha iki küçəsinin Babək prospektinə rahat giriş və çıxışı təmin ediləcək. Prospekt boyunca magistral su xətti, yüksək və orta təzyiqli qaz xətləri, elektrik magistral xətlər köçürülərək Ağ Şəhər layihəsinə uyğunluğu təmin edilib.

Tamamlama işləri çərçivəsində arabalar üçün panduslar, yerüstü piyada keçidləri, qoruyucu tumbalar, Daxili İşlər Nazirliyinin "Təhlükəsiz şəhər" xidməti tərəfindən videokameralar quraşdırılıb, "Azərsu" və "Azərişıq" Açıq Səhmdar cəmiyyətləri, "Azəriqaz" İstehsalat Birliyi tərəfindən yeraltı kommunikasiyalar, "Delta Telecom" MMC tərəfindən isə İT kanal sistemləri çəkilib.

Mərkəzi Park Kvartalı 2017-ci ildə təhvil verilmiş Paris evlərindən əlavə, 36, 20 və 8 mərtəbəli yaşayış binaları, 6-cı Park küçəsi boyunca ikimərtəbəli qeyri-yaşayış binaları, ticarət və ictimai iaşə obyektləri, orta məktəb, ofis və dövlət inzibati binaları, bir sıra park və yaşıllıq zonalarından ibarətdir.

Bildirilib ki, Qarabağ Atları küçəsinin mərkəzində səkkizmərtəbəli, müasir fasadlı yaşayış binalarının əhatəsində Qarabağ Atları Meydanı yerləşir.

Prezident İlham Əliyev Qarabağ Atları Meydanına gələrək burada ağac əkib.

Sonra dövlət başçısı Bakı Ağ Şəhər Qarabağ Atları Kompleksinin təməlini qoyub.

Meydanla tanışlıq zamanı qeyd olunub ki, ətrafdakı binalarda mağazaların, kafe və restoranların, digər ictimai iaşə obyektlərinin açılması nəzərdə tutulur. Burada həmişəyaşıl ağaclar və kollardan ibarət landşaft salınıb. Meydanın mərkəzində Qarabağ atlarının heykəl kompleksi quraşdırılıb. Qarabağ Atları heykəl kompleksi Azərbaycanın Qarabağ torpaqlarının 30 illik işğaldan azad edilməsi ilə nəticələnən 44 günlük Vətən müharibəsindəki Zəfərinə həsr edilib. Yeddi Qarabağ atından ibarət kompleksin hazırlanmasına amerikalı heykəltəraş Robert Sammers cəlb olunub. Qeyd edək ki, heykəltəraş Dallas şəhərində yerləşən "Mal-qara sürülməsi", Kaliforniya hava limanında "Con Ueyn" və digər əsərləri ilə dünyada məşhurdur.

Qarabağ Atları küçəsində avtomobillərin və piyadaların təhlükəsiz hərəkəti üçün hər cür şərait yaradılıb. Burada Ağ Şəhər layihəsinə uyğun olaraq piyadalar üçün panduslar və yerüstü keçidlər salınıb, eni 6-8 metr olan səkilərdə xüsusi dizaynlı daş düzümündə küçənin adı qeyd edilib, yaşıllıq zolaqları salınıb, avtomobil və velosiped dayanacaqları yaradılıb, piyadaların istiqamətləndirilməsi üçün yol göstəriciləri və xəritələr, tullantı qutuları, oturacaqlar quraşdırılıb. Küçə şimalda Babək prospektinə, cənubda isə Mərkəzi Parka birləşir.

### Prezident İlham Əliyev avtobusla Bakı Ağ Şəhər Mərkəzi Park Kvartalını gəzib

Prezident İlham Əliyev avtobusla Bakı Ağ Şəhər Mərkəzi Park Kvartalını gəzib.

Dövlət başçısına məlumat verilib ki, Meydanın ətrafındakı yaşayış binalarının birinin fasadında keramikadan xüsusi hazırlanmış pano quraşdırılıb. Həmçinin burada dördmərtəbəli hipermarket binasının, Babək prospektində müasir dizaynlı çoxfunksiyalı binanın və yaşıllaşdırılmış avtodayanacağın inşası başa çatıb. Bu kommersiya binaları Babək prospekti boyunca yerləşən satış və ticarət məkanlarının davamı olacaq.

Diqqətə çatdırılıb ki, burada həmçinin Bakı Ağ Şəhərin "landmark"ı olan və hazırda tikintisi aparılan 12 mərtəbəli ofis binası beynəlxalq standartlara uyğun iş məkanı təklif edəcək. Yeraltı və yerüstü avtodayanacaqların, müasir havalandırma sisteminin, sürətli liftlərin nəzərdə tutulduğu binanın qarşısında gəzinti və istirahət üçün geniş yaşıl meydan salınacaq. Ətraf mühit və ekologiyanı tikintidə əsas amil kimi nəzərə alaraq binanın BREEAM ekoloji sertifikatlaşma təşkilatı tərəfindən layihələndirmə mərhələsindən dəyərləndirilməsinə başlanılıb. Bu artıq Bakı Ağ Şəhərdə BREEAM sertifikatlı ikinci ofis binası olacaq, 12 mərtəbəli biznes mərkəzi beynəlxalq standartlara uyğun iş məkanları təklif edəcək. Biznes mərkəzinin arxasında, hündür binaların əhatəsində 1 hektar ərazisi olan Mərkəzi Park layihələndirilib. Parkda gözoxşayan landşaft və incəsənət nümunələri yer alacaq. Bu park piyadalar üçün şimalda Babək prospekti və Qarabağ Atları meydanından başlayan Fəvvarələr meydanı və piyada körpüsü boyunca Ağ Şəhər bulvarınadək 2 kilometrlik maneəsiz gəzinti xiyabanı üzərində yerləşəcək.

**Prezident İlham Əliyev: Məqsədimizə çatmışıq, şəhər içində artıq şəhər var.**

Ruslan Sadıxov: Maşallah, cənab Prezident, qoyduğunuz bütün təməllər hamısı uğurlu olur. Ağ Şəhər də onlardan biridir. Həm uğurlu, həm də böyük bir ekoloji layihə kimi dünyada tanınır. Həmçinin Bakı şəhərinin sakinləri arasında da böyük etimadla qarşılanır.

Dövlət başçısına Bakı Ağ Şəhər layihəsi çərçivəsində növbəti illərdə görüləcək işlər barədə də məlumat verilib.

*Qeyd edək ki, Bakı Ağ Şəhər layihəsi Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər planı" çərçivəsində həyata keçirilir. Bakı Ağ Şəhər dünyanın qabaqcıl və müasir ekoloji şəhərsalma layihəsi kimi müxtəlif beynəlxalq və yerli mükafatlara, Honkonqda "MIPIM Asia Awards 2011" müsabiqəsində "Mərkəzi və Qərbi Asiyanın ən yaxşı gələcək layihəsi" nominasiyasında, Dubayda "Cityscape Global" və bir sıra digər sərgilərdə "Ən yaxşı şəhərsalma layihəsi" kimi müxtəlif mükafatlara layiq görülüb.*

*Ağ Şəhərin təhvil verilmiş kvartallarında artıq minlərlə sakin keyfiyyətli və müasir şəhər mühitində yaşayır. Burada layihələndirilən və tikilmiş binalar, parklar və digər ictimai yerlər Bakı şəhərinin gözəl memarlıq simasına öz töhfəsini verməkdədir.*

# Əksər nazirliklər deputatları yola verirlər

## Millət vəkillərinin müraciətlərinə cavab verilmir

**Dünən Milli Məclisin payız sessiyası çərçivəsində növbəti plenar iclası keçirilib. İclasın gündəliyinə 23 məsələ daxil edilib. Deputatlar cari mövzularda çıxışlar edib, problemlərdən danışıblar. Milli Məclisdə Şimali Kiprlə dostluq qrupu yaradılması təklif olunub. Parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev deyib ki, Prezidentin öz doğum günündə Qərbi Azərbaycan icmasının binasının açılışını etməsi yeni mücadiləmizin anonsu və Böyük Vətənə Qayıdışın platformasıdır. Deputat bildirib ki, bu məsələdə hamı əlini daşın altına qoymalıdır:**

"Bunun üçün qanunvericilik planında da öz işimizi görməliyik. Əvvəl hər kəs özünü qarabağlı sayırdı, indi isə hamı özünü Qərbi azərbaycanlı hesab etməlidir. Biz diplomatik fəaliyyətimizdə də bu amalımız uğrunda işlər görməliyik". M.Quliyev Şimali Kipr Türk Cümhuriyyəti ilə dostluq qrupu yaradılmasını da təklif edib: "Onların parlamentində artıq bu addım atılıb. Səfərimiz zamanı onlar da analoji addımın bizim tərəfdən atılmasını xahiş edirdilər".



**"Hədəfimizdə Qərbi Azərbaycandan olan soydaşlarımızın öz yurdlarına dönüşü dayanır"**

*Deputat Bəhruz Məhərrəmov deyib ki, Şuşa-Xankəndi yolunda dinc aksiyalar davam edir. Qanuni şəkildə ölkə ərazisində olan hər kəs sərbəst hərəkət edə bilər:* "Konstitusiyamızın 14-cü maddəsinə əsasən, təbii ehtiyatlar Azərbaycan Respublikasına mənsubdur. 39-cu maddənin məzmununa görə isə ətraf mühitə, təbii ehtiyatlara qanunla müəyyən edilmiş hədlərdən artıq təhlükə törədilə, zərər vura bilməz və hər kəsin ətraf mühitin əsl vəziyyəti haqqında məlumat toplamaq hüququ var. Eyni zamanda sərvətlərimizin təbiətə bərpası mümkün olmayan zərərlərlə müşahidə olunan talanı Azərbaycan Cinayət Məcəlləsinin 28-ci fəsli üzrə ən azı 8 maddə ilə nəzərdə tutulmuş cinayət tərkibinin bütün əlamətlərini əhatələyir. Avropa İnsan Hüquqları Məhkəməsinin bu məsələ ilə bağlı çox ciddi mövqeyi var. 2006-cı il Cakomelli İtaliyaya qarşı işində açıq tələb qoyulub ki, "şəxslərin sağlamlığı üçün mənfi nəticələr doğura bilən ekoloji zərərli fəaliyyətlər zamanı maraqlı şəxslərin bütün aktual və lazımi informasiyaları əldə etməsi üçün səmərəli və əlçatan prosedur təşkil edilməlidir". Tatar Rumıniyaya qarşı (2009), Makginli və İqan Birləşmiş Krallığa qarşı (1998) və azı 20 belə qərar saya bilərik, bu, Avropanın mövqeyidir. Yaxşı, indi Azərbaycana çatanda Avropanın hüquq sistemi niyə çökür? Avropa Məhkəməsinin presedentləri, yaxud məhkəmə təcrübəsi hara gedir? Axı bu qərarlar uzaqda yox, elə Strasburqda qəbul olunub, Fransanın bundan xəbəri yoxdurmu? Əlbəttə, xəbəri var. Fransanı hansısa erməni maraqlandırmır, Fransa Azərbaycanın çoxsaylı obyektlərində inhisarçıya çevrilmək, Azərbaycanın milli təhlükəsizliyində imperialistcəsinə rol almaq niyyəti ilə hücuma keçmişdi. Makron reket kimi davranmaq istəyirdi ki, Azərbaycan Prezidenti ona yerini göstərdi. Vətəndaşlarımız prosesə açıq gözlə baxsınlar, necə oldu, həm İran, həm ölkə daxilindəki antimilli düşərgə məhz bu aralar aktivləşib? Çox sadə, Fransanın İran kartı fiaskoya uğradıqdan sonra indi də Azərbaycan siyasi sistemindəki 5-ci kolonunu işə salıb, amma bunlar da zatən siyasi cəhətdən bitdiyi üçün addımlar effektiv deyil. Heç kim Azərbaycanı dayandıra, cənab İlham Əliyevin iradəsinə təsir edə bilmədi və möhtərəm Prezidentin də dediyi kimi, "zənglər ola bilər, hansısa bəyanatlar ola bilər, onlara əhəmiyyət vermək lazım deyil, bizim mövqeyimizi zərrə qədər dəyişməyəcək. Əksinə, indi hədəfimizdə Qərbi Azərbaycandan olan soydaşlarımızın öz ata-baba yurdlarına, sülh yolu ilə, beynəlxalq konvensiyalara uyğun dönüşü dayanır. Əminliklə deyə bilərik ki, Prezidentin bu layihəsi Vətən müharibəsindəki Zəfərimiz qədər önəmli hadisə kimi tarixə düşəcək".

**"Ona görə də bu, uzun illərin işini tələb edir"**

*Deputat Fazil Mustafa hesab edir ki, beynəlxalq platformalarda qərbi azərbaycanlılarla bağlı çox ciddi işlər ortaya qoymalıyıq:* "Çünki faktiki olaraq bu ərazilər Ermənistanın sayılır. Ona görə də bu, uzun illərin işini tələb edir. Beynəlxalq platformalarda bu davanın uzun illər təbliğatı aparılmalıdır".

**"Xankəndi üzərində nəzarəti təmin etməliyik"**

*Millət vəkili Tahir Kərimli deyib ki, Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsindəyik. Qeyd edib ki, uzun illərdir bu bayram bizim cənubda yaşayan soydaşlarımıza aid edilmirdi:* "İlk dəfədir bu günü böyük sevinclə qeyd edirəm. Amma Prezidentimizin onların hüquqları ilə bağlı çıxışı da dünya azərbaycanlıları arasında ümid yaradır". Deputat bildirib ki, hələ bizim qarşımızda böyük vəzifələr var: "Qarabağla bizə böyük zərbələr vurmaq istədilər. Amma Böyük Azərbaycanın qurtuluşu Qarabağdan başlayır. Ölkə içərisində bizim böyük vəzifələrimiz var. Son 200 ildə ilk dəfədir ki, biz torpaq qaytarmışıq. Əziz qardaşlarım, əziz müxalifətçilər, eybi yoxdur, məni söyün. Biz Xankəndi üzərində nəzarəti təmin etməliyik. Bu gün hamını mütləq əksəriyyət tərəfindən bütün azərbaycanlıların lideri kimi qəbul edilən İlham Əliyevin ətrafında birləşməyə çağırıram".

**"Kərkicahandan 34 nəfər şəhid var"**

*Deputat Tural Gəncəliyev deyib ki, sabah Xankəndi şəhərinin və Kərkicahanın işğalı ildönümüdür:* "Biz əlbəttə, ərazi bütövlüyümüzü bərpa etdik. Amma bu tarixləri unutmamalıyıq. Azərbaycanlıların son dayaq nöqtəsi olan Kərkicahanda ermənilər azərbaycanlılara qarşı qırğın törədib. Kərkicahan ermənilərin Şuşaya tərəf gələrək Şuşanı işğal etməsi planını gecikdirdi. Ümumilikdə Xankəndidən 100-dən çox insan I Qarabağ müharibəsində şəhid olub, Kərkicahandan 34 nəfər şəhid var".

**"Şablon, formal cavablar verilir"**

*Deputat Ceyhun Məmmədov bildirib ki, dövlət qurumları bir sıra hallarda işə qəbulda obyektivlikdən uzaq qərar qəbul edirlər. Onun sözlərinə görə, bu da gəncləri dövlətdən narazı salır, onların başqa sahələrə yönəlməsinə səbəb olur:* "Nazirliklər deputatların rəsmi müraciətlərinə cavab vermirlər. Biz məktub yazırıq, ancaq çox vaxt şablon, formal cavablar verilir. Bəzən rəhbər yox, hansısa sektor müdiri cavab verir. Qanunun qəbulu ilə yanaşı nəzarət mexanizmləri də olmalıdır".

Deputat Tahir Kərimli də həmkarının fikrinə dəstək verib. Deyib ki, əksər qurumlar deputatları yola verirlər: "Hansısa şöbənin rəisinin müavini səviyyəsində cavab gəlir. Cavaba baxanda görürsən ki, məsələ araşdırılmayıb, ümumi, şablon cavab verilib. Hansısa məsələ ilə Daxili İşlər Nazirliyinə edilən müraciətlərimizə daha çevik, operativ cavab verilir. Özü də şəxsən rəhbərlik tərəfindən cavablanır. Məgər digər qurumlar DİN-dən artıqdır?".

**"Dövlət məmurlarına olan nəzarət mexanizmində də şəffaflıq və ədalətlilik olmalıdır"**

*Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova deyib ki, ictimai həyatın müxtəlif sahələrində dövlət siyasətini həyata keçirən, vətəndaşların və cəmiyyətin xidmətində olan dövlət orqanlarının səmərəli fəaliyyət göstərməsi, ilk növbədə, bu orqanlarda çalışan dövlət qulluqçularının yüksək peşəkarlığından və vəzifə borcunu məsuliyyətlə yerinə yetirməsindən asılıdır:* "Əsas məqsəd dövlət qulluğu sistemində idarəçiliyin təkmilləşdirilməsidir. Burada dövlət qulluqçularının fəaliyyəti, onların etik davranışları obyektiv qiymətləndirilməli, ayrı-seçkiliyə yol verilməməlidir. Prezident İlham Əliyevin apardığı islahatların nəticəsidir ki, artıq şəffaflığın təmin olunması məqsədilə elektron hökumət yaradılır, məmur - vətəndaş münasibətləri minimumlaşdırılır, dövlət qulluqçularının sosial vəziyyətləri və iş fəaliyyətləri yaxşılaşdırılır. Ancaq bununla yanaşı, dövlət məmurlarına olan nəzarət mexanizmində də peşəkarlıq, şəffaflıq və ədalətlilik olmalıdır. Buna görə də etik davranış üzrə müvəkkil vəzifəsini yerinə yetirən şəxs peşəkar olmalı, subyektivliyə yol verməməlidir".

**Etik davranış üzrə müvəkkil ödənişsiz əsaslarla fəaliyyət göstərəcək**

*Deputat Nizami Səfərov deyib ki, kimlərin etik davranış üzrə müvəkkil təyin oluna biləcəyi layihədə qeyd edilib.* Parlament üzvü vurğulayıb ki, etik davranış üzrə müvəkkil ödənişsiz əsaslarla fəaliyyət göstərəcək və bununla bağlı heç bir yeni ştat yaradılmayacaq. Qeyd edək ki, deputat Fazil Mustafa etik davranış üzrə müvəkkilin ödənişli əsaslarla fəaliyyət göstərib-göstərməyəcəyi ilə maraqlanıb.

**"Əsassız ödənilən pensiya pensiyaçıdan yox, bunu edən məmurdan tutulmalıdır"**

*Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Qüdrət Həsənquliyev deyib ki, pensiyaçının günahı olmadan onun pensiyasının tutulması ədalətli deyil. Deputat bildirib ki, pensiyaçı dövlət məmuru ilə hansısa əlaqəyə girib pensiya alıbsa, onun əlavə aldığı məbləğin hamısı, dövlətdən aldığı pullar geri alınmalıdır:* "Amma bu vəsaitlərin pensiyaçılardan tutulması pensiyaçılar üçün ciddi problem yaradacaq. Ona görə qanunvericilik təşəbbüsü subyekti ilə danışılsın və pensiyaçı orta aylıq əməkhaqqından çox alırsa, bu məbləğ ondan tutulsun. Az alırsa, o məbləğ bunu onun üçün təşkil edən dövlət məmurundan tutulmalıdır. Biz bu gün ağsaqqallarımızın qayğısına nə qədər qalacağıqsa, gələcək nəsil də bizi düşünəcək. Bu gün bəzi gənc ailələrin valideynlərinə kömək etmək imkanı yoxdur, onlar pensiya ilə dolanırlar. Yəni o pul artıq ödənilibsə, artıq xərclənib. Bu güzəşti, amnistiyanı bir az da genişləndirməyə ehtiyac var". Deputat bildirib ki, ona gənc ailə müraciət edib: "Onlar kirayədə qalır. Xanım analıq məzuniyyətinə çıxıb və ona vəsait ödənilib. İndi isə tələb edirlər ki, sizə artıq pul ödəmişik, pulu geri qaytar. Burada ailənin nə günahı var?! Vəzifəli şəxsin səhvidir və bu məbləğ ondan tutulmalıdır".

**"Artıq ödənilmiş vəsaitin pensiyaçılardan geri alınmasının mexanizmi açıqlanıb"**

Parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirib ki, daha az məbləğdə pensiya alanlardan 10 faiz, daha çox pensiya alanlardan isə 20 faiz məbləğ tutulacaq". *Deputat bildirib ki, beləliklə, pensiyaçılara artıq ödənilmiş vəsait geri alınacaq. Musa Quliyev əlavə edib ki, Dövlət Sosial Müdafiə Fondunun investisiya fəaliyyətinin əsaslarını müəyyən edən qanun layihəsi hazırlanacaq:* "Artıq bu təkliflər nazirlik tərəfindən müsbət qarşılanıb və DSMF-nin investisiya fəaliyyətinin əsaslarını müəyyən edən qanun layihəsi yaz sessiyasında müzakirəyə təqdim ediləcək".

**İsmayıl**



# Vardanyanla təmaslar heç vaxt olmayacaq

## Ceyhun Bayramov Ermənistana bir daha xəbərdarlıq edib

**“Azərbaycan 2022-ci il ərzində Prezident İlham Əliyevin rəhbərliyi altında milli maraqlara söykənən praqmatik, müsbət və açıq xarici siyasət həyata keçirib”.**

Bunu xarici işlər naziri Ceyhun Bayramov bu ilin yekunlarına dair mətbuat konfransında deyib. Nazir bildirib ki, Azərbaycanın xarici siyasəti milli təhlükəsizlik və sosial inkişaf üçün əlverişli xarici mühitin yaranmasına yönəlib: ”2022-ci il Azərbaycanla bir sıra xarici ölkələr arasında diplomatik münasibətlərin qurulmasının yubiley ili olub. 69 ölkə ilə 30 illik, 2 ölkə ilə 25 illik yubileyi qeyd etmişik”.

**“Türkiyə, Rusiya və Gürcüstanla əlaqələr inkişaf edib”**

*Ceyhun Bayramov Türkiyə, Rusiya və Gürcüstanla əlaqələrin inkişaf etdiyini bildirib:* ”Şuşa Bəyannaməsindən irəli gələn bütün sahələrdə Türkiyə ilə qarşılıqlı işlər aparılıb, yeni sənədlər hazırlanıb. Bu il ərzində Azərbaycan Prezidenti Türkiyəyə 3 səfər edib, Türkiyə dövlət başçısı Rəcəb Tayyib Ərdoğan isə Azərbaycana 2 səfər edib. Eyni zamanda beynəlxalq platformalarda da ikitərəfli görüşlər keçirilib. Azərbaycan-Rusiya əməkdaşlığı 2022-ci ildə uğurla davam edib. Azərbaycan Prezidenti İlham Əliyev Rusiyaya 1 rəsmi və bir neçə işgüzar səfər edib. Sahəvi nazirliklər arasında geniş əməkdaşlıq davam edib”. Nazir qeyd edib ki, Gürcüstanla dostluq və əməkdaşlıq gündəliyi kifayət qədər geniş olmaqla sabit inkişaf edib: ”İki ölkə arasında çox intensiv dialoq var”. C.Bayramov vurğulayıb ki, Azərbaycanın İranla əməkdaşlığının qarşılıqlı inkişafı üçün səylər davam etdirilib: ”2022-ci il Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə münasibətlərinin inkişafı üçün çox zəngin olub. İl ərzində müvafiq olaraq 5 Mərkəzi Asiya ölkəsinin hər biri ilə hökumətlərarası komissiyalarının iclasları keçirilib. İl ərzində Avropa ölkələri, Amerika və Çinlə münasibətlərimiz çox aktual olub və kifayət qədər dialoqumuz davam edib”.

**“Əldə olunmuş irəliləyişlər azdır, səbəbi Ermənistanın qeyri-konstruktiv mövqeyidir”**

*Nazir deyib ki, postmünaqişə dövründə Azərbaycanın sülh gündəliyinə uyğun olaraq, bu ilin fevral ayında sülhlə bağlı 5 baza prinsipi Ermənistana təqdim olunub:* ”Avropa İttifaqı (Aİ) Şurası Prezidentinin təşəbbüsü ilə Azərbaycan və Ermənistan liderlərinin iştirakı ilə 3 görüş keçirilib. Avqustda sülh danışıqlarına başlanılması barədə xarici işlər nazirlərinə tapşırıq verilib. Praqa və Soçi görüşlərində qəbul edilən danışıqlarda BMT Nizamnaməsinə uyğun olaraq ölkələrin ərazi bütövlüyü əsasında sülh danışıqlarının aparılması əksini tapıb. 23 dekabrda üçüncü raund danışıqlarının Moskvada keçirilməsi nəzərdə tutulsa da, Ermənistan bu danışıqları pozub”. Xarici işlər naziri qeyd edib ki, bu il Azərbaycan, Ermənistan və Rusiya Baş nazirlərinin müavinləri səviyyəsində nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası ilə bağlı danışıqlar keçirilib: ”Delimitasiya ilə bağlı da 3 görüş keçirilib. Bütün bunlara baxmayaraq, əldə olunmuş irəliləyişlər çox azdır. Bunun da səbəbi Ermənistanın qeyri-konstruktiv mövqeyidir”.

**“Zəngəzur dəhlizi ilə bağlı Ermənistanın mövqeyi elə onun özünə ziyan vuracaq”**

*XİN rəhbəri qeyd edib ki, Azərbaycanla İran arasında Araz çayı üzərində körpünün tikintisinə başlanıb, bununla Zəngilandan Naxçıvana qısa yol olacaq:* ”Zəngəzur dəhlizi ilə bağlı Ermənistanın mövqeyi elə onun özünə ziyan vuracaq. ”Ermənistan nə qədər tez bunu anlayarsa, sırf öz milli maraqları baxımından praqmatik addımlar ataraq öhdəliklərini yerinə yetirərsə, ilk növbədə özü üçün yaxşı olar. Azərbaycan istənilən halda öz milli maraqlarını həyata keçirəcək, Ermənistanın öhdəliklərini yerinə yetirməsini tələb edəcək”.

**“Azərbaycan gələn il Ermənistana qarşı yeni iddialar qaldıracaq”**

*Nazir vurğulayıb ki, 2022-ci il ərzində Beynəlxalq Ədalət Məhkəməsi və AİHM-də Azərbaycan tərəfinin Ermənistana qarşı şikayətləri üzrə tədbirlər görülür və bu, davam etməkdədir. Onun sözlərinə görə, bu ay Azərbaycan Ermənistana qarşı 2022-ci ilin may-avqust ayında Ermənistanın Laçın şəhəri və iki qonşu kəndi tərk edərkən yüzlərlə yaşayış yerini yandırması, məhv etməsi ilə bağlı yeni dövlətlərarası şikayət təqdim edib və bununla bağlı ziyana görə kompensasiyanın ödənilməsi tələb edilir*: ”Bu proseslərin özünəməxsusluğu var. 2023-cü ilin əvvəlindən tərəfimizdən Azərbaycanın Ermənistana qarşı ətraf mühitə və canlı təbiətə vurulmuş zərər, həmçinin enerji resurslarının və təbii sərvətlərinin qanunsuz istismarına qarşı yeni iddialar irəli sürüləcək”.

**“Bütün silahlı birləşmələr sülhməramlı kontingent orada yerləşdirilən zaman çıxarılmalı idi”**

*C.Bayramov bəyan edib ki, qanunsuz erməni silahlı birləşmələrinin Qarabağdan çıxarılması məsələsində bizim mövqeyimiz tam qətidir. Üçtərəfli bəyanat da buna cavab verir:* ”Bir çox hallarda Ermənistan rəsmiləri bunun Ermənistan silahlı qüvvələrinə şamil olunmasını iddia edirlər. Amma heç bunun özünü onlar yerinə yetirməyiblər. Çoxsaylı dəlillər sübut edir. Ancaq üçtərəfli bəyanatda erməni silahlı birləşmələrinin Qarabağdan çıxarılmasından söhbət gedir. Bütün silahlı birləşmələr sülhməramlı kontingent orada yerləşdirilən zaman çıxarılmalı idi”. XİN rəhbəri qeyd edib ki, davamlı görüşlərdə bu məsələni qaldırırlar: ”Rusiya tərəfinin mövqeyi ondan ibarətdir ki, bu, üçtərəfli bəyanatdır və bura imza atan Ermənistan da var. Bu, Ermənistanın öhdəliyidir və erməni silahlı birləşmələrinin Qarabağdan çıxarılmasını Ermənistan təmin etməlidir. Bu, həqiqətən də, Ermənistanın öhdəliyidir və onlar bu öhdəliyi pozur. Buna paralel olaraq bölgədə davamlı olaraq gərginlik yaradır. Bir çox hallarda Qarabağda gərginliyə səbəb qanunsuz silahlı birləşmələrin oradakı fəaliyyətidir”.

> “Qanunsuz erməni silahlılarının Qarabağdan çıxarılmasını Ermənistan təmin etməlidir”

**“Azərbaycanla ABŞ arasında əməkdaşlığın perspektivləri böyükdür”**

*Nazir diqqətə çatdırıb ki, Azərbaycanla ABŞ arasında bərabərlik, qarşılıqlı hörmət, enerji təhlükəsizliyi, beynəlxalq cinayətkarlıqla mübarizə, sülhməramlı əməliyyatlarda əməkdaşlıq qeyd olunmalıdır. C.Bayramov deyib ki, Azərbaycanın uğurlu enerji siyasəti Avropaya münasibətdə böyük töhfə verir:* ”ABŞ-nin bu layihələrə çox böyük siyasi dəstəyi olub, ABŞ şirkətləri bu layihələrdə iştirak edib”. Xarici işlər naziri qeyd edib ki, ABŞ və Azərbaycan arasında çox intensiv dialoq var: ”Bölgədə davamlı sülhün təmin edilməsində vasitəçiliklə bağlı ABŞ-nin mühüm təşəbbüsləri olub. ABŞ-nin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan nümayəndələrinin görüşü olub, Vaşinqtonda Azərbaycan-Ermənistan sülh danışıqlarının ikinci raundu təşkil edilib. ABŞ sülh prosesinə də kifayət qədər fəal töhfə verməkdədir”.

**“Qarabağda yataqların monitorinqinin baş tutmaması təxribat idi”**

*Ceyhun Bayramov bəyan edib ki, Rusiya xarici işlər naziri ilə son görüşdə, mətbuat konfransında Azərbaycan tərəfinin Laçın yolu ilə bağlı mövqeyini çatdırıb:* ”Azərbaycan nümayəndələrinin iştirakı ilə Qarabağda yataqların monitorinqinin baş tutmamasına gəlincə, bildirilib ki, buna yerli əhali mane olub. Bu, özünü yerli qurumların rəhbəri elan etmiş şəxslərin təxribatı idi. Bu, yolverilməzdir, qurama bir işdir. Düşünürdülər ki, bu addımla nəsə əldə edəcəklər. Azərbaycan dövləti uzun müddət səbirlə yataqlarda monitorinq aparılması istiqamətində iş aparırdı. Bu nəticə vermədiyi təqdirdə ekoloqlarımız belə aksiyaya start verdilər. Bu, onların hüquqlarıdır və bu hüquqdan istifadə edirlər”.

**“Ləkəli keçmişi olan şəxs Qarabağa göndərilib, bu təxribatın qarşısını almağa hazırıq”**

*Ceyhun Bayramov deyib ki, Laçın dəhlizinə alternativ yolun tikilməsi müsbət bir təcrübə idi:* ”Bu yol ermənilərin yaşadıqları ərazilərdən keçirdi. Yolun tikintisi zamanı yerli ermənilərin müraciətləri nəzərə alınıb. Bu yolun tikilməsi zamanı inşaatda çalışanlarla ermənilər arasında normal bir ünsiyyət var idi. Yaxud Sərsəng su anbarı ilə bağlı müzakirələr aparıldı ki, torpaqların suvarılması üçün nə qədər su götürülsün, elektrik enerjisi istehsalı necə təmin edilsin. Ancaq ləkəli keçmişi olan şəxs bölgəyə göndərilir, ancaq Azərbaycan belə təxribatların qarşısını almağa hazırdır”.

**“Sirr deyil ki, Rusiya Qarabağın statusu ilə bağlı məsələnin gələcək illərə qalmasını təklif etmişdi”**

*C.Bayramov bildirib ki, hər bir tərəf təklif verə bilər:* ”Biz öz gündəliyimizə, təkliflərimizə əsaslanmalıyıq. Biz ilk gündən bu təklifin qəbuledilməz olduğunu bildirmişik. Biz baza prinsipləri üzrə danışıqlar aparırıq. Azərbaycan yalnız öz milli maraqları çərçivəsində addım atır”.

**“Aİ-nin Ermənistana göndərdiyi missiya ilə bağlı məsələlər Azərbaycanla razılaşdırılmalıdır”**

*Nazir bildirib ki, Aİ-nin Ermənistana göndərdiyi missiya ilə bağlı məsələlər Azərbaycanla razılaşdırılmalıdır:* ”İki ay ərzində Avropa İttifaqının 40 mülki şəxsdən ibarət missiyası delimitasiya olunmamış Ermənistan-Azərbaycan sərhədində monitorinq keçirməli idi. 19 dekabrda bu missiya başa çatıb, missiyanın nəticəsi ilə bağlı Azərbaycana hesabatlar təqdim olunmayıb: ”Eyni zamanda bilirik ki, Avropa İttifaqı tərəfindən yeni missiyanın planlaşdırılması mərhələsi baş tutur. Bu mütəxəssislər yeni missiya ilə bağlı planlaşdırmanı həyata keçirir. Bu missiya ilə bağlı məsələlər Azərbaycan tərəfi ilə razılaşdırılmalıdır. Baxmayaraq ki, missiya Ermənistan ərazisindədir, ancaq missiya Azərbaycan sərhədi istiqamətində olduğu üçün Azərbaycan tərəfi ilə məlumat mübadiləsi olmalıdır”.

**“Azərbaycanın Qarabağdakı ermənilərlə təmasları olub”**

*Ceyhun Bayramov qeyd edib ki, Azərbaycanın Qarabağdakı ermənilərlə təmasları olub:* ”Azərbaycanın Qarabağdakı etnik ermənilərlə təmasları ilə bağlı adlar çəkilərsə, o şəxslərə qarşı təzyiq arta bilər. Belə bir təmaslar var idi, bu, sirr deyil. Azərbaycan tərəfinin Ruben Vardanyanla təmasları heç vaxt olmayacaq. Gələcəkdə də yerli əhali ilə təmaslar olacaq, biz bunu normal hesab edirik.

*Ceyhun Bayramov Ermənistanla sülh müqaviləsinin imzalanmasına mane olan məqamları açıqlayıb:* ”Danışıqlarda bəzi narahatedici məqamlar var. Biz tərəfdən 3 element var. Birinci element belədir ki, hansısa layihə təqdim olunanda birdən-birə öz istək və arzularınızı ora daxil etməli deyilsiniz. Bu layihə real və beynəlxalq hüquqa əsaslanmalıdır. Bunu irəli aparmaq üçün qəbul ediləcək bir zəmin olmalıdır. Azərbaycan məhz bundan irəli gələrək 5 baza prinsipini təqdim etdi. Qısa zamanda Ermənistan 5 baza prinsipində onlar üçün qəbuledilməz heç bir prinsipin olmadığını etiraf etdi. Bunun da səbəbi vardı. Çünki faktiki olaraq ona ”yox” demək çox çətindir. 5 baza prinsipi çox ədalətli idi. Bu 5 prinsipdən sonra görüşlər oldu. Baxmayaraq ki, həmin görüşlər nəticəsində hansısa yeni sənədlər qəbul edilmədi, ancaq 5 baza prinsipini daha da inkişaf etdirən razılaşmalar əldə edilmişdi. Bunlar Ermənistan tərəfindən məqbul sayılmışdı. Ermənistan tərəfi bunu öz cəmiyyətinə də açıqlamışdı. Ermənistan tərəfdən danışıqlar prosesində biz bəzi şərhlərə baxanda öncə əldə olunmuş razılaşmalardan geriyə addımları görürük. Hesab edirik ki, bu çox ziyanlı tendensiyadır”.

**“Bunu sızdırmaq danışıqlar prosesində çox ziyanlıdır”**

*XİN başçısı danışıqlar prosesinin Ermənistan tərəfindən ictimai məkana sızdırıldığını bildirib:* ”Prosesə çox mənfi təsir edən məqam yalnız sülh müqaviləsi ilə bağlı deyil. Ermənistan danışıqlar prosesində müzakirə predmeti olan məqamlarla bağlı ictimai məkana informasiyalar sızdırır. Bu, sosial şəbəkələr vasitəsilə edilir. Birincisi, bunu sızdırmaq danışıqlar prosesində çox ziyanlıdır. İkincisi isə bu, qarşı tərəfin mövqeyini əks etdirmir. Bizdən fərqli olaraq, vasitəçilər Ermənistanı bu məsələdə açıq-aşkar günahlandırmır. Biz bunun çox zərərli olduğunu bildirmişik. Vasitəçilər də bunu görür”.

**“Azərbaycan-İran münasibətlərində bəlli bir gərginlik var, vəziyyəti çox dramatikləşdirmək istəməzdim”**

*Ceyhun Bayramov deyib ki, Azərbaycan ”3+3” formatını faydalı sayır və dəstəkləyir:* ”Bu format çərçivəsində görüşün keçirilməsinin nə vaxt uyğun olması ilə bağlı düşünməyə ehtiyac var”. Xarici işlər naziri qeyd edib ki, Azərbaycan xarici siyasətinin əsas prioriteti qonşu ölkələrlə dost, qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsidir: ”Son dövrlər Azərbaycan-İran münasibətlərində bəlli bir gərginlik var. Mən vəziyyəti çox dramatikləşdirmək istəməzdim. İqtisadi sahədə əldə olunmuş razılaşmalar icra olunur. Azərbaycan-İran münasibətləri mövcud durumda daha yaxşı ola bilərdimi? Ola bilərdi. Azərbaycan heç bir halda bu münasibətlərin gərginləşməsinin tərəfdarı olmayıb. İranlı həmkarımla da çoxsaylı danışıqlarımız olub, o da münasibətlərin inkişafının tərəfdarı olduğunu bildirib. Azərbaycanın mövqeyi belədir ki, qarşılıqlı hörmət, bir-birinin işlərinə qarışmamaq çərçivəsində münasibətlər inkişaf etməlidir”.

**İsmayıl**

# Laçın yolunda dinc aksiya hələ bitməyib

## Erməni mediası yalan məlumatlar yayırlar



> “Azərbaycanlı ekofəalların və könüllülərin məqsədi humanitar yüklərin hərəkətinə mane olmaq deyil, ekoloji məsələlərə diqqəti yönəltməkdir”

**Bir sıra erməni KİV Xankəndi-Şuşa yolunda təşkil olunan dinc aksiyanın bitdiyi barədə yalan məlumatlar yayıblar. Fransa daxil olmaqla bəzi dövlətlərin media qurumları isə aksiya barədə qərəzli informasiyalar yayır, Laçın yolunun bağlı olması yalanını tirajlayır, ermənilərin ”humanitar fəlakətlə üzləşməsindən” dəm vururlar.**

Lakin azərbaycanlı aktivistlər və ekologiya üzrə qeyri-hökumət təşkilatlarının nümayəndələrinin Laçın yolunda keçirtdikləri aksiya izdihamla davam edir. Ekoloji terrora son qoyulması məqsədilə dekabrın 12-dən başlayan etiraz aksiyasına müxtəlif bölgələrdən çoxlu sayda könüllü təşkilatlar da qoşulmaqdadır. Xankəndi-Şuşa yolunda təşkil olunan aksiyanın iştirakçıları ekoloji terrora etiraz olaraq müxtəlif şüarlar səsləndirirlər. Aksiyada etiraz edənlərin əsas tələbləri azərbaycanlı mütəxəssislərin montorinq aparılması üçün lazımi şərait yaradılması, ermənilərin Azərbaycan torpaqlarında ekoloji terrora son qoyulmasıdır. Bununla yanaşı, Laçın yolunda ayrıca sərhəd və gömrük nəzarəti postlarının yaradılması, Azərbaycan ərazisinə qanunsuz silah daşınmasının qarşısının alınması tələb olunur. Dəfələrlə vurğulandığı kimi də Laçın yolu bağlı deyil və rus sülhməramlıların təminat konvoyları, o cümlədən Xankəndidən gələn təcili yardım maşınları yoldan sərbəst şəkildə, maneəsiz keçirlər.

**Millət vəkili Vüqar Bayramov bir sıra aparıcı xarici mətbuat orqanlarının qərəzli mövqe nümayiş etdirməsindən, Azərbaycanı əsassız ittiham etmələrindən təəssüfləndiyini deyib. Deputat bildirib ki, saxta ittihamlar zamanı hətta adı Brüsseldəki korrupsiya araşdırmalarında hallanan şəxslərə belə istinad etməkdən çəkinmirlər:** ”Azərbaycanlı ekofəalların və könüllülərin məqsədi humanitar yüklərin hərəkətinə mane olmaq deyil, ekoloji məsələlərə diqqəti yönəltməkdir. Yayılan video-görüntülər də göstərir ki, humanitar yük daşıyan avtomobillər Laçın yolunda maneəsiz hərəkət edə bilirlər. Əslində ətraf mühitin qorunması ilə bağlı etiraz beynəlxalq hüquqa, BMT konvensiyalarına və eləcə də Azərbaycanın ərazi bütövlüyü prinsiplərinə uyğundur. Nəzərə almaq lazımdır ki, Ağdərə rayonunda yerləşən qızıl bulaq mis-qızıl kolçedan yatağı Azərbaycanın ən böyük təbii ehtiyatlar ilə zəngin yataqlarından biri hesab olunur. Ehtiyatları 17,5 ton həcmində qiymətləndirilən yatağın işlənməsi ilə bağlı qərarı yalnız Azərbaycan dövləti ölkə qanunvericiliyi çərçivəsində həyata keçirə bilər. ”Base Metals” MMC aldı erməni şirkəti 2013-cü ildən 2020-ci ilədək həmin yatağın mis-qızıl ehtiyatlarını talayıb. Həmin müddətdə mədəndə hər ay 12 min ton filiz çıxarılıb və saflaşdırma kombinatında emal edilib. Konsentrat Ermənistana aparılıb, orada təkrar emal olunduqdan sonra tərkibində qızıl olan mis Avropa bazarına çıxarılıb. Bu şirkət Avstraliyanın ”İnternational Base Metals Limited” şirkətinin törəmə müəssisəsidir və həmin ölkədə yaşayan erməni iş adamı tərəfindən qurulub. Yataqların mənimsənilməsi nəticəsində Azərbaycana dəyən ziyan yüz milyon dollarla ifadə olunur. Bu hadisənin ən ciddi tərəfi məhz Azərbaycanda milli həmrəylik və vətənpərvərliyin kifayət qədər yüksək olması və xalqımızın xarici təhdidlərə hər zaman birgə cavab vermək əzmində olduğunu bir daha nümayiş etdirməsidir. Birliyimiz heç zaman sarsılmasın”.

**İsmayıl Qocayev**

# Vaxt gələcək

## Qərbi azərbaycanlıların da hüquqları bərpa ediləcək



**”24 dekabr tarixində Prezident İlham Əliyev Qərbi Azərbaycan İcmasının ziyalıları ilə görüşdə bir çox vacib məqamlara toxundu. Dövlət başçısı qeyd etdi ki, ”gün gələcək Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar”.**

Bu sözləri millət vəkili Ceyhun Məmmədov deyib. Deputat vurğulayıb ki, necə ki, bu gün Zəngilan rayonunun Ağalı kəndində yaşayan insanların böyük əksəriyyəti, eyni zamanda uşaqlar, gənclər onlar üçün doğma olan torpaqlara geri dönüblər: ”Heç şübhəsiz ki, onları ora getməyə vadar edən torpaq həsrəti və Vətən sevgisidir. Prezident İlham Əliyev 11 il öncə öz ad günündə Ağcabədidə məcburi köçkünlərlə bir yerdə olarkən demişdi: ”Gün gələcək, siz məni öz doğma diyarınızda qəbul edəcəksiniz, mən sizin diyarınıza qonaq gələcəyəm”. Həyata keçirilən uğurlu daxili və xarici siyasət nəticəsində o gün gəldi, insanlarımız öz doğma yurdlarına qayıtdılar. Ona görə Qərbi azərbaycanlılar da heç vaxt inamı itirməməlidir. Gün gələcək, biz Qərbi Azərbaycanda bu günü xatırlayacağıq. Tarixdən hər kəsə məlum olduğu kimi, Qərbi Azərbaycan bizim tarixi torpağımızdır. Vaxtilə türk dünyasının qədim və ayrılmaz diyarı olan Zəngəzur bölgəsi Azərbaycandan qoparılıb Ermənistana verilib. Tarixi Azərbaycan torpaqları olan Qarabağ və Zəngəzura XIX əsrin əvvəllərindən başlayaraq erməni əhalisinin yerləşdirilməsi, 1920-ci illərdə sovet hakimiyyətinin qərarı ilə heç bir əsas olmadan tarixi diyarımız olan Qərbi Zəngəzurun Ermənistana verilməsi, 1948-1953-cü illərdə yüz minlərlə azərbaycanlının indiki Ermənistan ərazisindəki əzəli yurdlarından köçürülməsi xalqımıza qarşı erməni təcavüzünün qanlı səhifələridir. Bu, xalqımıza qarşı növbəti düşmənçilik və ədalətsizlik idi. Çünki Zəngəzurun şərqində də, qərbində də Azərbaycan xalqı əsrlər boyu yaşayıb və indiki Ermənistan ərazisində olan Qərbi Zəngəzurun bütün toponimləri Azərbaycan xalqına məxsus idi. Qərbi azərbaycanlılar qanunsuz olaraq dəfələrlə köçürülməyə məruz qalıblar. Vaxt gələcək, onların hüquqları bərpa ediləcək və onlar öz doğma torpaqlarına qayıdacaqlar. Əsas məsələ ondadır ki, biz inamımızı itirmirik. Biz Ali Baş Komandanımız İlham Əliyevin yürütdüyü siyasət nəticəsində buna nail olacağımıza əminik”.

**İsmayıl**

# Valideynlər məktəbə hücum edirlər

## Aqil Abbas: "Şagirdin əlindəki telefon müəllimin 4-5 aylıq maaşıdır"



### Əksər deputatlar qanuna yenidən baxılmasını tövsiyə ediblər

**Parlamentin dünənki iclasında "Təhsil haqqında" qanun da müzakirə olunub. Əksər deputatlar qanuna yenidən baxılmasını tövsiyə ediblər. Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov bildirib ki, bu qanun Milli Məclisdə 14 il müzakirə olunub:**

"Təhsilin pilləliyindən danışırlar. Təhsildə nə qədər pillə olar? Bakalavr, magistr, aspirantura, dissertantura, doktorantura və s. Dünyanın hər yerində birpilləli müdafiə sistemi var. Prezidentin sərəncamı oldu, təhsillə elm birləşdi. Qanunda da bu, nəzərə alınmalıdır. Biz sistemi müasirləşdirməliyik, yeniləşdirməliyik. Mənim bu strukturlarla problemim yoxdur, amma bir adam bir kafedrada 4 dəfə müdafiə edir, 5-ci dəfə alimin işi Ali Attestasiya Komissiyasına göndərilir. Orda da ekspert deyir ki, bu, plagiatdır. Yəni 60-70 alimin rəyi nəzərə alınmır, amma tanınmayan bir ekspertin rəyinə görə bu alimə dərəcə verilmir. Amerika üzrə elmlər doktoru var. Bu, harada görülüb?! Biz artıq yeni sistemə keçməliyik".

**"Repetitorluq sistemi orta məktəbləri dağıdır"**

*Deputat Fəzail Ağamalı deyib ki, repetitorluq sistemi orta məktəbləri dağıdır, 8-9-cu siniflərdən sonra məktəblərə uşaqlar gəlmir:* "Gələn sessiyadan "Təhsil haqqında" qanunu yenidən işləməliyik". Sədr Sahibə Qafarova gələn sessiyada təhsil problemlərinə dair Elm və təhsil komitəsinin böyük dinləmə keçirilməsini təklif edib: "Buna ehtiyac var. Konkret spektr götürülməli, problemlər müzakirə edilməlidir".

**Millət vəkili Sabir Rüstəmxanlı vurğulayıb ki, təhsil sistemində hər şey təmərküzləşir, rəhbərliyin idarəetməsinə verilir. Deputat bildirib ki, bu, işləri çətinləşdirir, cavanlar üçün çoxlu problemlər yaradır:** "Universitetin vəzifəsi istedadlı uşaqlar yetişdirməkdir, bürokratiya yaratmaq deyil. Xarici ölkələrdə hər universitet dövlət içində dövlətdir. Universitet qəbul etdiyi tələbənin taleyini özü düşünür. Bizdə isə bunlar hamısı yığılıb bir yerə. Mən bunun əleyhinəyəm. Universitetlərin heç bir hüququ qalmayıb, belə olmaz".

**"Müəllimlər bu maaşla bizim ərköyün balalara dərs deyirlərsə, milli qəhrəmandırlar"**

**Deputat Aqil Abbas vurğulayıb ki, qanun qəbul etməklə təhsilimizi düzəldə bilmərik:**

"Bu gün orta məktəb şagirdlərinin ağır çantasını mən özüm götürə bilmirəm. Uşaqlar bu ağırlıqda çantanı götürməkdən axırda ya "ştanqist" olacaqlar, ya da qozbel. Digər yandan müəllimlərin üstünə çox düşürlər. Müəllimlər bu maaşla bizim ərköyün balalara dərs deyirlərsə, milli qəhrəmanlardır. Uşağa bir şapalaq vurub deyə, 30 illik müəllimi məktəbdən qovublar. Belə şey olar? Mən şiddətə qarşıyam. Amma töhmət verilərdi, nəsə edilərdi. Belə şey olmaz. Kişi müəllimlər onsuz da azdır. Onları məktəbdən belə qovmaq olmaz. Peyğəmbərimiz deyirdi ki, "mənə bir hərf öyrədənin 40 il onun qulu olaram". Amma bu gün valideynlər məktəbə hücum edirlər. Elə bilirlər ki, müəllim onun quludur. Keçmişdə nadinc şagirdləri məktəbdən çıxarardılar, onlar üçün ayrıca məktəb olardı. Amma onlar orada elə tərbiyə alardı ki, içindən polislər, polkovniklər çıxırdı. İndi şagirdlər müəllimin başına çıxır. Şagirdin əlindəki telefon müəllimin 4-5 aylıq maaşıdır".

**İsmayıl**



# Dialoq asan olmayacaq

## MDB üzvləri arasında fikir ayrılıqları yeni məsələ deyil

**"Təhdidlər və çağırışlar artır, MDB üzvləri arasında da fikir ayrılıqları yaranır, lakin Birlik ölkələri arasında onları həll etmək hazırlığı var".**

Bunu Rusiya Prezidenti Vladimir Putin MDB liderlərinin qeyri-forma sammitində çıxışında bildirib.

"Təəssüf ki, bu sahədə ilk növbədə kənardan gələn çağırışlar və təhdidlər ildən-ilə artır. Təəssüf ki, biz etiraf etməliyik ki, Birliyə üzv dövlətlər arasında da fikir ayrılıqları yaranır. Lakin əsas odur ki, əməkdaşlıq etməyə hazırıq. Hər hansı problemli məsələlər ortaya çıxsa belə, biz onları özümüz birlikdə bir-birimizə yoldaşlıq yardımı göstərərək həll etməyə çalışırıq", - deyə Rusiya Prezidenti vurğulayıb.

*V.Putin onu da qeyd edib ki, MDB ölkələri arasında əməkdaşlıq uğurla davam edir:* "Son bir ildə dövlətlərimizin çoxşaxəli qarşılıqlı əlaqəsi bütövlükdə uğurla inkişaf edib. Bunu bizim aramızda, Rusiya ilə bütün MDB ölkələri arasında ticarət dövriyyəsinin davamlı artımı da təsdiqləyir. Yanvar-oktyabrda ticarət dövriyyəsinin həcmi 6,6 faiz artaraq 81,5 milyard dollara çatıb. Bu ilin sonuna qədər onun 100 milyard dollara çatacağını gözləməyə əsas var. Sonda bir daha əmin olduğumu bildirmək istərdim ki, MDB çərçivəsində əməkdaşlığın dərinləşdirilməsi ölkələrimizin xalqlarının əsas maraqlarına cavab verir, Birlik dövlətlərinin sosial-iqtisadi inkişafı problemlərinin daha səmərəli həllinə, regional təhlükəsizlik və sabitliyin möhkəmləndirilməsinə kömək edir".

**Mövzunu "Şərq"ə dəyərləndirən politoloq Tofiq Abbasov vurğulayıb ki, qonşu dövlətlər arasında hər zaman fikir ayrılıqları və mübahisəli məqamlar olur:** "Məsələn, elə Ermənistanın Azərbaycana qarşı ərazi iddialarını götürə bilərik. Onların hamısı müxtəlif kateqoriyalı çətinliklərdir. Bəziləri süni şəkildə, bəziləri də təbii surətdə meydana gəlir. Amma ilk növbədə hüquqi göstəricilərə nəzər yetirmək lazımdır.

Çünki həqiqətən də, hüquqi baxımdan ölkələrin biri-birinə qarşı olan iddiaları əsaslıdırsa, o zaman mütləq şəkildə dialoq atmosferi formalaşmalıdır. Belə olmadığı təqdirdə isə çətinliklər olduğu kimi qalacaq və heç bir irəliləyiş olmayacaq. Rusiyanın özünün də qonşuluğundakı Ukrayna, Qazaxıstan və s. kimi dövlətlərlə münasibətlərində gərginliklər var.

Ümumiyyətlə, reallığı tanımaq, heç də ortadakı çətinliklərin yaxın gələcəkdə aradan qaldırılmasından xəbər vermir. Hesab edirəm ki, Putin desə də, deməsə də, ilk növbədə təmaslar olmalı, tərəflər biri-birini dinləməli və ondan sonra qərarlar verilməlidir".

**Nihat Müzəffər**

# Nifrət artır...

## İran rejiminin isə geri çəkilmək niyyəti yoxdur



### Radikal cəzalarla etirazçıların gözünü qorxutmağa çalışırlar

**İranda hakimiyyət əleyhinə olan etirazlar hələ də səngimir. Rejim isə etirazçılara qarşı sərt cəzalar tətbiq edir. İranın hökumət mollaları etirazçılarla bağlı növbəti qorxunc qərarı veriblər. Onlar etirazçıların əl və ayaqlarının kəsilməsinə nail olmaq istəyirlər. "Azad İran" Telegram" kanalının məlumatına görə, Qum Elmi-Dini Hövzəsinin Müəllimləri Birliyi, o cümlədən İranın şər rejimini dəstəkləyən bir qrup radikal molla İranda etirazları yatırtmaq üçün "İslam qanunlarına əsasən" etirazçıların əl və ayaqlarının kəsilməsini tələb edib.**

Etirazlar xalqın ayrılmaz hüququdur, etirazçıların öldürülməsi və onlara ölüm hökmünün verilməsi isə beynəlxalq cinayətdir. Etirazçıların edamını tələb edənlər bu cinayətdə iştirak edirlər və buna görə məsuliyyətə cəlb edilməlidirlər.

Qeyd edək ki, İranda edam hökmlərinin icrasının sayı ötən illə müqayisədə 88 faiz artıb. İranda İnsan Hüquqları Müdafiə Agentliyinin (HRANA) illik hesabatında bildirilib ki, agentlik cari ildə 267 xəbər mənbəyi tərəfindən yayımlanan insan hüquqlarının vəziyyəti ilə bağlı 13 342 hesabatı toplayaraq təhlil edib.

Bildirilib ki, ötən il ərzində İran vətəndaşları fundamental hüquqlarının kobud şəkildə pozulması ilə üzləşiblər.

Yeri gəlmişkən, ABŞ İranı ölkədəki bütün etirazçıları qeyd-şərtsiz azad etməyə çağırıb. Bunu Dövlət Departamentinin Mətbuat xidmətinin rəhbəri Ned Prays deyib: "Biz İranda azadlıqlarının dinc şəkildə həyata keçirilməsi üçün həbsdə olan bütün insanların qeyd-şərtsiz azad edilməsinə çağırırıq. Onların hüquqları uğrunda mübarizə davam edir".

**İrandakı vəziyyəti dəyərləndirən politoloq Natiq Miri isə "Şərq"ə açıqlamasında deyib ki, hazırda rejim özünün ən təhlükəli dönəmini yaşayır:** "Mollakratiya rejiminin güzəştə getməməsi Ali rəhbəri Xameneyi özünü Allahın yerdəki nümayəndəsi sayması ilə əlaqədardır. Özlərini alim sayan mollalar etirazçıları cahil gözündə görür deyə tələblərinin mümkünsüz olduğunu bəyan edirlər. İran rejiminin geri çəkilmək niyyətində olmadığını vurğulayan politoloq deyib ki, radikal cəzalarla insanların gözünü qorxutmağa çalışırlar. Zənn edirlər ki, edamların sayı artsa, etirazçılar öz tələblərindən əl çəkəcək və aksiyaları dayandıracaqlar. Əslində isə cəzaların sərtləşdirilməsi, edamların artması mollaların gözləntilərinin əksi olaraq etirazların daha da alovlandırır. Bu cəzaların fonunda molla rejiminə nifrət artır və qorxu sindromunu aşan etirazçılar, sadəcə, şər qüvvələri məhv etmək barədə düşünür. Əvvəllər etirazlar kor-təbii olurdu. İndi isə İranda milli oyanış və milli azadlıq hərəkatı var. Bu da İranın qondarma rejimini ciddi şəkildə təhdid edir. İran rejimi etirazları yatıra bilmir. Ona görə də etirazçılara qarşı güc strukturları daha amansız davranır, hətta küçələrdə, hamının gözü qarşısında insanları güllələyirlər. Etirazçılara qarşı belə münasibət İrana faydadan çox ziyan vuracaq. Güc tətbiqinin artırılması əks-təsirə səbəb olacaq.

> "Gələcək perspektivdə etirazçı toplum vahid siyasi liderlərini müəyyənləşdirə bilsə, artıq o zaman İrandakı rejimin çöküşündən danışmaq mümkün olacaq"

Biz bunun təzahürlərini görməkdəyik. İrana qarşı iqtisadi sanksiyalar artıb. Xüsusən də Ukrayna ilə müharibə şəraitində olan Rusiya ilə hərbi tərəfdaşlıqdan sonra onsuz da ağır vəziyyətdə olan İran iqtisadiyyatını çökdürəcək. Nəticədə bu gün nədənsə qorxub etirazlara qoşulmayan insanların da küçələrə axın etməsinə səbəb olacaq".

*Artıq İrandakı rejimin perspektivi olmadığını vurğulayan N.Miri deyib ki, şəriətdə əli-qolu kəsmək kimi cəzalar ancaq oğrulara tətbiq olunur. Küçələrə çıxan insanlar isə özlərinin haqlarını tələb edir:* "Sərt cəzalar, güc tətbiqi həm də ona görə işə yaramayacaq ki, İranı din pərdəsi altında idarə etmək istəyən molla rejiminə zərrə qədər inam qalmayıb. Çünki molla rejimi İranı islamlaşdırmaqdansa, islamı iranlaşdırıb və fransızlaşdırıb. Məhz buna görə də İranın gələcəkdə molla rejimi tərəfindən idarə edilməsi ehtimali sürətlə sıfıra yaxınlaşır. İrandakı etirazlarda iştirak edənlərin əksəriyyətinin əsasən tələbə və gənclərdən ibarət olması hazırkı rejimin sürətlə çökməsinə təkan verə biləcək. Çünki etirazın önündə gedənlər ölkənin gələcəyi hesab olunan tələbələr, gənclərdir.

Təkcə 35-40 milyonluq Azərbaycan türkləri deyil, türksoylu etnoslar, ərəblər, kürdlər İran rejiminə qarşı etiraza qalxıb. Düzdür, İranda bu zamana qədər də müxtəlif səbəblərlə etirazlar olub, amma budəfəki etirazların miqyasının genişliyi və uzunmüddətli olması bu 3 faktorun birləşməsindəndir. Yəni etiraz edənlər həm rejimdən bezib, həm ağır sosial-iqtisadi vəziyyətdədirlər, həm də etnik kimlikləri, hüquqları ciddi şəkildə pozulur. Sadəcə olaraq aksiyalar vahid mərkəzdən idarə olunan struktur halında deyil. Əsas problem də burdadır. Gələcək perspektivdə etirazçı toplum vahid siyasi liderlərini müəyyənləşdirə bilsə, artıq o zaman İrandakı rejimin çöküşündən danışmaq mümkün olacaq".

**Şeymən**

# Dünya təcrübəsində belədir

## "Deputatlar qanun layihələri təklifi ilə çıxış etməlidir"



**"Bizdə deputatların qanunvericilik təşəbbüsü ilə çıxış etməsi yox səviyyəsindədir". Bunu Milli Məclisin dünənki iclasında deputat Fazil Mustafa deyib. Parlament üzvü bildirib ki, deputatın qanunvericilik təşəbbüsü hüququnu konstitusion hüquq kimi ayırmaq lazımdır:**

"Digərlərinə tətbiq edilən şərtlər deputata tətbiq edilməməlidir. Bu, dünya təcrübəsində də belədir. Deputatlar qanun layihələri təklifi ilə çıxış etməlidir. Onun geriçevrilmə mexanizmi isə müəyyən qurum tərəfindən edilməlidir. Türkiyə TBMM-də deputatlar elə layihələr təqdim edirlər ki, bəlkə də bunlar heç lazım deyil. Amma onlar bu təşəbbüslə çıxış edə bilirlər. Bizdə isə deputatların qanunvericilik təşəbbüsü ilə çıxış etməsi, demək olar ki, yox səviyyəsindədir. Bu, belə olmamalıdır. Deputat hazırladığı layihəni qurumlarla razılaşdırmamalıdır. Layihəyə rəyi ən azından Milli Məclisin komitələri və ya şöbələri almalıdır".

**İsmayıl**

# Paşinyan Parisə ümid edib danışıqlardan qaçır

## Ancaq Bakı və Moskva xəttində ortaq mövqelərin tapılması istisna deyil



**"Moskvada XİN rəhbərləri səviyyəsində üçtərəfli görüşdən imtina edən İrəvan liderlərin də təmasından yayındı. Aydındır ki, bu, səbəbsiz-məqsədsiz deyil". Bu barədə "Şərq"ə açıqlamasında siyasi şərhçi Asif Nərimanlı deyib. Analitik bildirib ki, İrəvan "Laçın yolu"nun açılmasını bu qədər istəyirsə, XİN rəhbərlərinin də, liderlərin də görüşündə maraqlı olmalı idi:**

"İrəvan görüşlərdən imtina etməklə, "Rusiya Qarabağdakı ermeniləri qoruya bilmir" fikrini gücləndirir və məsələdən Moskvaya qarşı istifadə edir. Avropada Bakıya qarşı beynəlxalq təzyiqin hazırlanması cəhdlərinə ümid edir. Əgər Laçın yolundakı aksiya Rusiyanın yox, Qərbin Bakıya təzyiqi ilə dayandırılsa, bu, Moskvanın məğlubiyyəti olacaq. O da aydındır ki, üçtərəfli görüş keçirilsəydi, Laçın yolu ilə başlanan müzakirələrin sonu üçtərəfli razılaşmaların icrası tələbi ilə yekunlaşacaqdı və Paşinyan qaçmaqla prosesi uzadır. İkincisi, sülh müqaviləsinin müzakirəsidir. Bakı qəbul etməsə də, Paşinyan Fransanın vasitəçiliyinə, o cümlədən üçtərəfli razılaşmalardan yayınmaq və Qarabağdakı separatçıların "qəbul edilməsi" məsələsində Parisin dəstəyinə ümid edir. Eyni zamanda BMT TŞ-də gözlənilən növbəti müzakirələrə Bakının təkcə Laçın yolu məsələsində yox, sülh müqaviləsində də geriyə düşə biləcəyini "hesablayır". Anlayır ki, Rusiya masasında sülh müqaviləsinin müzakirəsi üçtərəfli razılaşmaların icrası tələbinin kölgəsində keçəcək".

**Ekspert qeyd edib ki, Bakı-Moskva xəttində ciddi fikir ayrılığı olsa da, üçtərəfli razılaşmaların praktiki icrası məsələsində ortaq mövqelərin tapılması istisna deyil:** "Xüsusilə Bakının davamlı gündəmdə saxladığı erməni silahlı dəstələrinin çıxarılması bəndi üzrə ortaq mövqeyə gəlinə bilər. Düz məntiq rusların sülh prosesində iştirakçılığının mövcud vəziyyətdə Bakının istədiklərini verməkdən keçdiyini deməyə əsas verir. Bakı böyük ehtimalla praktik addımların miqyasını beynəlxalq müstəvidə hazırlanan erməni təxribatının mümkün təsirlərinə uyğun müəyyən edəcək".

**İsmayıl**

# Qərbi Azərbaycana da qayıdış reallaşacaq

## Məhərrəm Zülfüqarlı: "Prezidentimizin qətiyyətli çıxışı hamı kimi məni də ruhlandırdı"

**Prezident İlham Əliyevin Qərbi Azərbaycan İcması üzvləri, ziyalılarla görüşündə səsləndirdiyi fikirlər geniş əks-səda doğurub. Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılmış şəraitlə tanış olan cənab Prezident ziyalılarla görüşü zamanlı önəmli açıqlamalarla çıxış edib.**

Prezidentin səsləndirdiyi fikirlər Azərbaycan xalqının təkcə tarixi keçmişinə, mədəni irsinə deyil, tarixi torpaqlarına da sahib çıxmağa qadir olduğunu təsdiqləyən ciddi mesaj xarakteri daşıyır. Prezidentlə bu görüşdən sonra həm Qərbi Azərbaycandan olan ziyalılar, həm də ümumən ölkə ziyalılarında qədim torpaqlarımıza, dədə-baba ocağımıza qayıdışın gerçəkləşəcəyi əminliyini daha da artırıb.



*"Yox əgər, buna mane olmağa çalışsalar, təxribatlar törədilsə, cavabları qətiyyətlə veriləcək"*

**Azərbaycan Vətəndaş Cəmiyyətinə yardım Assosiasiyası Seçki Qərargahının rəhbəri, tarixçi-alim, professor Məhərrəm Zülfüqarlı "Şərq"ə açıqlamasında cənab Prezindentin Qərbi Azərbaycandan olan ziyalılarla görüşünü izlədiyini dedi:**

- Prezidentin ziyalılarla həmin görüşünü efir vasitəsilə izlədim. Və sizə bildirmək istəyirəm ki, bu görüş məndə xoş təəssürat oyatdı. Prezidentimizin qətiyyətli çıxışı hamı kimi məni də ruhlandırdı. Azərbaycan xalqı böyük tarixə malik xalqdır. Bu, danılmaz həqiqətdir. Lakin zaman-zaman, tarixin çətin, keşməkeşli, müxtəlif dönəmlərində, regionda baş verən ictimai-siyasi proseslər fonunda ərazi itkisinə məruz qalmışıq. Ərazi itkimiz 1828-ci il Türkmənçay müqaviləsinin imzalanmasıyla başlayıb. Çar Rusiyası İrəvan, Naxçıvan və Ordubad xanlıqlarını ləğv edərək, bu əraziləri birləşdirib erməni vilayəti təşkil edib. Vətəni olmayan erməni etnosunun da o zamandan Azərbaycan torpaqlarına yerləşdirilməsinə başlanılıb. Bunun nə məqsədlə edildiyi də məlumdur. Ermənilərin Qafqaza gəlişi bu üsulla həyata keçirilib. Sonra da yavaş-yavaş yayılmağa başlayıblar, Qarabağa da belə gəlib çıxıblar. Hara gediblərsə, harada yaşamağa başlayıblarsa, orada torpaq iddiası ilə çıxış ediblər. Təkcə Azərbaycana qarşı deyil, Gürcüstana qarşı da, Türkiyəyə qarşı da ərazi iddiaları irəli sürüblər, bu gün də həmin sərsəm siyasəti davam etdirirlər. 1918-ci ildə Gürcüstan Zaqafqaziya Seymini tərk edib müstəqilliyini elan edib, onun ardınca da Azərbaycan. Gürcülər də Qafqazın tarixi sakinləridir, Azərbaycan türkləri də. Təkcə ermənilər gəlmə, sonradan yerləşdirilmiş xalqdır. İki dövlət müstəqilliyini elan etdikdə, ermənilər də müstəqil olmaq arzularını bildirib. Belə olan halda ozamankı Azərbaycan Xalq Cümhuriyyəti ermənilər də digər 2 Qafqaz respublikası kimi suveren dövlət ola bilsin deyə, müəyyən ərazilərin ermənilərə güzəştə gedilməsinə bu şərtlə razılıq verib ki, ermənilər Azərbaycan və gürcü xalqı ilə birlikdə bolşevizmlə mübarizə aparsın. Ümumən Qafqazda Rusiya işğalına son qoyulsun. Amma sonrakı proseslər tarixdən məlum olduğu kimi başqa istiqamətə yönəldi, Azərbaycan da bolşeviklər tərəfindən işğal olundu, Gürcüstan da, Ermənistan ərazisində də həmçinin sovet hakimiyyəti bərqərar oldu. Lakin ermənilər nə xain xislətlərindən, nə də ərazi iddialarından əl çəkdilər. Sovet hakimiyyətinin ilk illərində yenə ərazi iddiaları ilə çıxış etdilər, bu da tarixi torpaqlarımızın bir hissəsinin - Zəngəzurun itirilməsi ilə nəticələndi. Daha sonra - 1946-cı ildə azərbaycanlıların tarixi torpaqlarından deportasiyası həyata keçirildi. Sonuncu dəfə - 1988-ci ildə isə Qərbi Azərbaycan torpaqlarından sonuncu Azərbaycan türkünün qovulması baş verdi. Özü də necə, soyqırıma məruz qoyularaq, zorla evlərindən çıxarılaraq, əli-ayağı yalın, işgəncələrə məruz qalaraq. Bu sonuncu deportasiya da 1946-cı ildə olduğu kimi sovet əsgərlərinin gözü qarşısında və onların birbaşa dəstəyi ilə həyata keçirildi. Bunları qısaca ona görə xatırlatdım ki, Azərbaycanın tarixi ərazilərinin itirilməsinin hansı şəraitdə baş verdiyi aydın olsun. Və bunu xüsusi olaraq vurğulamaq istəyirəm ki, Azərbaycanda istər cümhuriyyət dövründə, istərsə də sovet hakimiyyəti illərində siyasi hakimiyyətdə olmuş azərbaycanlı rəhbərlərdən heç biri ərazi itkisiylə barışmayıb. Bütün vasitələrlə buna mane olmağa, torpaq itkisinin qarşısını almağa çalışıblar. Nəriman Nərimanovdan üzü bəri hər bir azərbaycanlı rəhbər həmişə Azərbaycanın mənafeyini müdafiə edib. N.Nərimanovun Moskvaya göndərdiyi məktublar var. Nərimanov erməni daşnaklarının xain planlarından, Azərbaycan xalqının sovet hakimiyyətinə inamının zəiflədiyindən yazırdı. Ona görə də N.Nərimanovu zəhərləyib xaincəsinə öldürdülər. Hətta Mir Cəfər Bağırovun vaxtında da ermənilər Qarabağa iddia etməyə başlayıb, gürcülər də Zaqatala, Balakən bölgəsinə. M.C.Bağırovun cavabı bu olub ki, elədirsə, ermənilər Azərbaycana Vedibasarı, Göyçə mahalını, gürcülər də Borçalını qaytarsın. Və bu ərazilər Azərbaycana birləşdirilsin. Ümummilli Lider Heydər Əliyev Mərkəzi Komitənin birinci katibi olduğu illərdə ermənilər başlarını qaldırıb sərsəm iddialarla çıxış edə bilmirdilər. Yəni bütün azərbaycanlı rəhbərlər erməni iddialarına müqavimət göstərib, torpaq itkisinə yol verməməyə çalışıblar.

**M.Zülfüqarlı qeyd etdi ki, dövlətin güclü olması onun mövqeyinə birbaşa təsir edir:**

- İndi Azərbaycan güclü dövlətdir. Türkiyə kimi, Pakistan kimi güclü müttəfiqləri var. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında təmsil olunan türkdilli dövlətlərlə münasibətlərimiz ən yüksək səviyyəyə qalxıb. Güclü orduya, dayanıqlı iqtisadiyyata, qalib xalqa malik müzəffər Ali Baş Komandan da tarixi həqiqətləri qətiyyətlə səsləndirir. Çünki Azərbaycan öz gücünə arxayın bir dövlətdir artıq.

M.Zülfüqarlı bildirdi ki, Prezidentin Qərbi Azərbaycan ziyalıları ilə görüşü ermənipərəst qüvvələrə açıq mesajdır:

- Prezident bu mesajla ona işarə edir ki, əgər siz bizim hüquqi sərhədlərimizi tanımasanız, biz də tarixi ərazilərimizə iddia edəcəyik. Bu həm ermənilərə, həm də ermənipərəst qüvvələrə sərt mesajdır. Düşünürəm ki, inşallah, Qafqazda da sülh bərqərar olacaq. Necə ki, vaxtilə birbiriylə düşmən olan Avropa dövlətləri indi sərhəd maneələri də tanımır, bir dövlətin vətəndaşı sərbəst şəkildə digər dövlət ərazisinə səfər edir. Qafqazda da belə bir mühit yarana bilər. Hesab edirəm ki, tarixi torpaqlarımız olan İrəvan, Zəngəzur, Vedibasar, Göyçə... bütün Qərbi Azərbaycan ərazilərinə soydaşlarımızın qayıdışı, köçü sivil yolla həyata keçəcək. Yox əgər, buna mane olmağa çalışsalar, təxribatlar törədilsə, cavabları qətiyyətlə veriləcək.

M.Zülfüqarlı qeyd etdi ki, hazırda ziyalılar və ictimai təşkilatlar və dövlət orqanlarının üzərinə düşən əsas vəzifələrdən biri Qərbi Azərbaycanla bağlı təbliğatı gücləndirmək, dünyada ictimai rəyi lehimizə dəyişməkdir. Bunun üçün kitablar nəşr olunub paylanmalı, xarici mediada geniş materiallar dərc edilməli, sənədli filmlərin yayımlanmasına nail olunmalıdır. Avropa Şurası, ATƏT PA-nın Azərbaycan təmsilçiləri də fəaliyyətlərində bu istiqaməti unutmamalıdırlar. Vaxtaşırı bəyanatlarla, müraciətlərlə çıxış etməlidirlər.

**Məlahət Rzayeva**



# İlham Tumas xəstəxanaya yerləşdirildi

## Tanınmış jurnalist, Qarabağ qazisinin səhhətində müəyyən problemlər yaranıb

**Tanınmış jurnalist, Qarabağ qazisi İlham Tumas xəstəxanaya düşüb. Hazırda Respublika Klinik Xəstəxanasının Nevrologiya şöbəsində müalicə alır.**

Məlumatı İlham Tumasın yaxın dostu Rey Kərimoğlu yayıb.

Onun dediklərinə görə, həmkarı çox kritik vəziyyətdə xəstəxanaya yerləşdirilib. Ardıcıl sudurqalar keçirib:

"44 günlük müharibədən sonra İlham Tumasın səhhətində müəyyən problemlər yaranıb. Axırıncı dəfə bir gecədə 3 dəfə ardıcıl sudurqa keçirib və ağır vəziyyətdə xəstəxanaya yerləşdirilib. Hazırda vəziyyəti stabildir. Qəflətən səhhəti pisləşən İlham Tuması jurnalist Qorxmaz Tofiqoğlu xəstəxanaya çatdırıb. Həkimlərin bildirdiyinə görə, jurnalist əsəb sarsıntısı keçirib və dərhal müdaxilə edilib", - deyə Rey Kərimoğlu qeyd edib.

O bildirib ki, İlham Tumas birinci Qarabağ müharibəsində 2 dəfə - könüllü və zabit kimi iştirak edib. Azərbaycanın tanınmış döyüşçüləri general Polad Həşimovla, Raquf Orucovla birlikdə xidmət edib. 44 günlük Vətən müharibəsində də Baş leytenant olaraq orduya çağırılıb. Cəbhənin cənub istiqamətində gedən döyüşlərdə iştirak edib. Müharibədən sonra medallarla təltif edilib.

Həmçinin Rey Kərimoğlu qeyd edib ki, TƏBİB jurnalistin müalicəsi ilə yaxından maraqlanır və lazım olan köməkliyi, diqqəti göstərir. Bununla bağlı Qarabağ qaziləri TƏBİB-ə təşəkkürünü bildirib.

*İlham Tumasın səhhəti ilə bağlı vəziyyət Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcidin diqqətindədir.*

# İrəvan Kreml münasibətlərindəki çat dərinləşir

## Ermənistan Rusiyadan imtina da edə bilmir, çünki Azərbaycan və Türkiyə ilə üz-üzə qalmaqdan qorxur



**Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan ölkəsinin İctimai Televiziyasına verdiyi müsahibədə Kremlin İrəvana təzyiqini iki tələblə izah edib. O qeyd edib ki, Rusiya İrəvandan Azərbaycana dəhliz verməyi və Rusiya-Belarus ittifaqına qoşulmağı tələb edib.**

Qriqoryanın sözlərinə görə, bu gün Laçın yolunda baş verənlər, guya, İrəvanın Kremlin iki tələbini yerinə yetirməməsiylə bağlıdır. O, sentyabr ayında Azərbaycanla Ermənistan təmas xəttindəki döyüşləri də Kremlin tələblərinin yerinə yetirilməməsiylə izah edib. Qriqoryanın müsahibədəki sonuncu cümləsi də Kremlə atmacadır: "Ermənistan demokratiyası və demokratik sistemimiz Kremlin ittifaq təklifinə müqavimət göstərdiyinə görə hərbi təzyiqlə üzləşib".

**Politoloq Elxan Şahinoğlu bildirib ki, Qriqoryan bu cümləsi ilə demək istəyib ki, Ermənistan demokratik, Rusiya avtoritar dövlət olduğuna görə ittifaqa qoşulmayacaqlar. Həmçinin İrəvan Moskvanın şərtini qəbul etmədiyinə görə Azərbaycan Ermənistana təzyiqi artırıb:** "Armen Qriqoryanın müsahibəsi Kremlin narahatlığına səbəb olacaq. Özü də müsahibə Baş nazir Nikol Paşinyanın Rusiya Prezidenti Vladimir Putinlə görüşünə təsadüf edib. Bir neçə gün əvvəl Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın Moskvada üçtərəfli görüşdən imtina etməsi də Kremlin narazılığına səbəb olmuşdu. Əslində Armen Qriqoryanın Rusiyanın təzyiqlərini ictimaiyyətə bildirməsi İrəvanla Kreml arasındakı münasibətlərdə çatı daha da dərinləşdirəcək. Digər tərəfdən bu müsahibə Ermənistan hakimiyyətinin çarəsizliyini göstərir. Ermənistan Rusiyadan asılı dövlətdir. Buna baxmayaraq, İrəvan Kremlin tələblərini yerinə yetirmir. İrəvan öz növbəsində Rusiyadan imtina da edə bilmir, çünki Ermənistan Azərbaycan və Türkiyə ilə üz-üzə qalmaqdan qorxur. Bu amillər Azərbaycana öz şərtlərini diktə etmək üçün geniş manevr imkanları yaradır".

**İsmayıl Qocayev**



# Rusiya daha çox itki ilə üzləşəcək

## Qərb imkan versə, Ukrayna müharibəsi bitə bilər

**Birləşmiş Ştatlar Rusiya-Ukrayna münaqişəsinin uzadılması və daha şiddətli olması üçün hər şey edir.**

Bunu TASS-a müsahibəsində Rusiyanın xarici işlər naziri Sergey Lavrov deyib.

"Pentaqon açıq şəkildə Amerika müdafiə sənayesinin gələcək illər üçün sifarişlərini planlaşdırır, Ukrayna Silahlı Qüvvələrinin ehtiyatları ilə bağlı hərbi xərclər üçün səviyyəni daim qaldırır və anti-Rusiya alyansının digər üzvlərindən də bunu tələb edir. Kiyev rejimi qəsdən ən müasir silahlarla, o cümlədən Qərb ordularına hələ qəbul edilməmiş silah nümunələri ilə doldurulur. Görünür, bu, onların döyüş şəraitində necə işlədiyini görmək üçün edilir. Bu ilin fevralından bəri Kiyev rejiminə hərbi yardımın həcmi 40 milyard dolları keçib ki, bu da bir çox Avropa ölkələrinin hərbi büdcələri ilə müqayisə oluna bilər", - deyə Lavrov bildirib.

**Çıxışın gizlinlərini "Şərq"ə açan siyasi şərhçi Asif Nərimanlı söyləyib ki, Kreml və Ağ Ev biri-birini ittiham etməklə məşğuldur:** "Rusiya Ukrayna ilə müharibəyə başladıqdan sonra Amerika açıq formada onlara qarşı həm informasiya, həm də digər istiqamətlərdə kampaniya başlatdı. Rəsmi Moskva isə müxtəlif rəsmi şəxslərin çıxışları ilə münaqişənin bitməməsində Amerikanı günahlandırır. Lavrovun bu açıqlaması isə Kremlin danışıqlar masasında maraqlı tərəf olması deməkdir. Bu, Rusiyanın sülhün tərəfində olduğu üçün yox, cəbhədəki vəziyyətin onların xeyrinə olmamasından irəli gəlir. Artıq Putin səviyyəsində də etiraflar olunub ki, Donbassdakı vəziyyət rusların xeyrinə deyil. Lakin Kremlin Ukraynaya ziyan vurmaq üçün öz planları var".

**Analitik qeyd edib ki, Lavrov açıqlama ilə özlərini haqlı tərəf kimi göstərməyə çalışır:** "O, Ukrayna xalqına "Biz sülhə getmək istəyirik. Amma Qərb buna imkan vermir" mesajı göndərir. Rusiya indiki halda mətnli danışıqlar prosesinin başlanmasını çox istəyir. Çünki bu başlayarsa, ən azından işğal etdiyi ərazilər onda qalacaq. Ancaq müharibənin davam etdiyi təqdirdə Rusiya daha çox itki ilə üzləşəcək. Xüsusən də Xersondan çıxdıqdan sonra, Donbassdan da çıxarıla bilər. Hətta rəsmi Kiyevin Krımı geri qaytarmaq üçün hücum planı belə var".

A.Nərimanlının sözlərinə görə, Rusiya Ağ Evi ittiham etməklə həm də Avropa Birliyinə mesaj verir: "Proseslərin uzanmasına görə ən çox ziyan çəkənlərdən biri də Avropadır. Qabaqdan daha da şiddətlənən qış ayları gəlir. Bu durumda Avropa üçün daha da çətin olacaq. Moskva isə bir növ Avropaya mesaj göndərir ki, vəziyyətin bu yerə gəlməsində Qərb günahkardır. Kreml həmçinin Qərblə Avropa arasında fikir ayrılığı yaratmaqla, danışıqlar masasına rəsmi Kiyevin özünün oturmasına çalışır. Yəni Avropanın Qərbə təzyiq etməsini planlayır".

**Nihat Müzəffər**

# Xarici mütəxəssislərə güzəştlər mütləqdir

## Yaxın perspektivdə Azərbaycanın İKT mühiti xeyli cəlbedici olacaq

**Milli Məclisdə Azərbaycanın İKT sektoru ilə bağlı müzakirələr aparılıb və bu sahənin inkişafı üçün vacib təkliflər irəli sürülüb.**

Təkliflər siyahısında gələn ildən ölkəmizdə İT sektorunda çalışan şirkətlər və mütəxəssislər, o cümlədən xarici vətəndaşların ciddi güzəştlər əldə edəcəyi ilə bağlı da müzakirələr var. Belə ki, xarici investisiyaları innovasiya və yüksək texnologiyalar sahəsinə cəlb etməklə texnologiya parklarının genişləndirilməsi məqsədilə Miqrasiya Məcəlləsinə dəyişikliklər hazırlanıb.



Qanun layihəsinə əsasən, iş icazəsinin alınması tələb olunmayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin dairəsinə texnologiyalar parkının rezidenti və həmin rezident tərəfindən ölkə ərazisində əmək fəaliyyətinə cəlb edilən informasiya və kommunikasiya texnologiyaları sahəsində təcrübəsi olan mütəxəssislər əlavə olunur. Buna uyğun olaraq, həmin şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazənin verilməsi nəzərdə tutulur. Müzakirələrdən sonra dəyişikliklər səsverməyə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

**Xarici İKT mütəxəssisləri üçün nəzərdə tutulan güzəştləri şərh edən Azərbaycan İnternet Forumunun Prezidenti, ekspert Osman Gündüz deyib ki, hökumət son illərdə ölkə daxilində İKT sektorda mövcud olan durğunluğu aradan qaldırmaq və sürətli inkişafa nail olmaq, həm də regionda baş verən relokasiyadan faydalanmaq istəyir. Onun sözlərinə görə, bu güzəştlər yaxın perspektivdə İKT biznes mühitini xeyli inkişaf etdirəcək:**

"Düzdür, regionda relokasiyanın ilkin mərhələsi artıq başa çatıb və müharibə bölgələrindən miqrasiya edən İT mütəxəssislərin çoxusu qonşu ölkələrdə məskunlaşıblar. Bu bizim üçün təəssüfləndirici bir hal olsa da, gələn ildən İT sektorunda çalışmaq istəyən xaricilərdən iş icazəsinin tələb olunmaması təqdirəlayiq bir haldır. Düşünürəm ki, bu güzəştlərin tətbiqi Azərbaycanın İKT mühitini xeyli cəlbedici edəcək. Yaxın perspektivdə İT biznes mühiti xeyli inkişaf edəcək. Güzəştlər yeni İT şirkətlərin formalaşmasını sürətləndirəcək. İKT sektorunda, xüsusilə də proqram təminatı sektorunda, İT kadr hazırlığı sahəsində ciddi inkişafı proqnozlaşdırmaq, bu sahədə eksportun artacağını gözləmək olar. Ümumiyyətlə isə bu güzəştlərlə yaxın bir neçə ilə Azərbaycanda ÜDM-də İKT-nin payı az da olsa yüksələcək. Hazırda isə bu sahədə ölkəmizdə vəziyyət qonşu ölkələrlə müqayisədə xeyli geridədir".

*Ekspert hesab edir ki, hökumətin "İKT güzəştlər" paketi gecikmiş də olsa çox əhəmiyyətli addımdır, tez bir zamanda bu güzəştlərin tətbiqinə başlamaq, bu sahədə informasiyalı mühit formalaşdırmaq doğru olardı:* "Yaxın perspektivdə İT biznes mühiti xeyli inkişaf edəcək. Güzəştlər yeni İT şirkətlərin formalaşmasını sürətləndirəcək. İKT sektorunda, xüsusilə də proqram təminatı sektorunda, İT kadr hazırlığı sahəsində ciddi inkişafı proqnozlaşdırmaq, bu sahədə eksportun artacağını gözləmək olar. Ümumiyyətlə isə bu güzəştlərlə yaxın bir neçə ilə Azərbaycanda ÜDM-də İKT-nin payı az da olsa yüksələcək. Yeri gəlmişkən, ciddi "İKT güzəştlər" paketinin hazırlanması və qəbul ediləcəyi ilə bağlı mesajlar uzun müddət müzakirə olunsa da, məhz indiki Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (RİNN) rəhbərliyi dövrünə təsadüf etməsi də diqqət cəlb edəndir".

**Şəymən**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması;**




# Sülh gündəliyi...

## Proseslərin yekun nöqtəyə çatması ləngiyir

**44 günlük müharibədə qazanılan misilsiz qələbədən sonra Azərbaycan regionda sülhün, qarşılıqlı əlaqələrin və inteqrasiyanın əsas təşəbbüskarı kimi çıxış edib. Cari il münaqişədən sonrakı mərhələnin yeni reallıqları fonunda Azərbaycan və Ermənistan arasında münasibətlərin yaradılması və normallaşdırılması üçün Ermənistana təqdim olunan baza prinsiplər ətrafında görüş və müzakirələr ilə xarakterizə olunub.**

Lakin Azərbaycanın sülh quruculuğu istiqamətində bütün səylərinə baxmayaraq, Ermənistanın pozuculuq siyasəti davam etdirilib. İrəvan tərəfi ilin sonuna doğru ehtimal edilən və hazırlıq görülən üçtərəfli görüşlərdən də imtina edib. Bunun əvəzində, dövlət sərhədində atəşkəs rejimini mütəmadi pozub, eləcə də Qarabağda qanunsuz silahlı birləşmələrin saxlanmasına şərait yaradıb. Hətta proseslərin gərgin müstəvidə qalması yeni hərbi əməliyyatların başlanması mövzusunu da gündəmə gətirib.

Mövcud durumla bağlı Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov danışıb. Nazir mətbuat konfransında çıxışı zamanı bildirib ki, bu il əldə olunmuş irəliləyişlər azdır, səbəbi isə Ermənistanın qeyri-konstruktiv mövqeyidir. Nazir qeyd edib ki, postmünaqişə dövründə Azərbaycanın sülh gündəliyinə uyğun olaraq, bu ilin fevral ayında sülhlə bağlı 5 baza prinsipi Ermənistana təqdim olunub. Ceyhun Bayramov deyib ki, Avropa İttifaqı (Aİ) Şurası Prezidentinin təşəbbüsü ilə Azərbaycan və Ermənistan liderlərinin iştirakı ilə 3 görüş keçirilib, avqustda sülh danışıqlarına başlanılması barədə xarici işlər nazirlərinə tapşırıq verilib: ”Praqa və Soçi görüşlərində qəbul edilən danışıqlarda BMT Nizamnaməsinə uyğun olaraq ölkələrin ərazi bütövlüyü əsasında sülh danışıqlarının aparılması əksini tapıb. 23 dekabrda üçüncü raund danışıqlarının Moskvada keçirilməsi nəzərdə tutulsa da, Ermənistan bu danışıqları pozub”. Xarici işlər naziri qeyd edib ki, bu il Azərbaycan, Ermənistan və Rusiya Baş nazirlərinin müavinləri səviyyəsində nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası ilə bağlı danışıqlar keçirilib: ”Delimitasiya ilə bağlı da 3 görüş keçirilib. Bütün bunlara baxmayaraq, əldə olunmuş irəliləyişlər çox azdır. Bunun da səbəbi Ermənistanın qeyri-konstruktiv mövqeyidir”. Ceyhun Bayramov nəzərə çatdırıb ki, bu il Laçın şəhəri, Zabux və Sus kəndləri Azərbaycanın nəzarətinə keçib. XİN başçısı Ermənistanın üçtərəfli bəyanatın bir sıra öhdəliklərini pozduğunu xatırladıb: ”Üçtərəfli bəyanatda yer alan bir sıra öhdəliklərin hələ də Ermənistan tərəfindən yerinə yetirilməməsi, qanunsuz erməni silahlı dəstələrinin hələ də Azərbaycan ərazilərində qalması, təbii sərvətlərimizin qanunsuz istismarı, mina problemi barədə məlumatlar beynəlxalq təşkilatlara çatdırılır”. Nazir əlavə edib ki, 35-i mülki şəxs olmaqla, 46 vətəndaşımız bu il mina terrorundan həyatını itirib.

Ceyhun Bayramov Ermənistanla danışıqlar üzrə üç istiqamətdə iş getdiyini vurğulayıb: ”Ermənistanla danışıqlar üzrə üç istiqamətdə iş gedir: sülh müqaviləsi, kommunikasiyaların açılması və delimitasiya prosesi. Bu istiqamətlərlə bağlı ayrı-ayrı qruplar işləyir. Əsas məqam odur ki, qarşı tərəf bu danışıqlara ciddi yanaşsın, daxili auditoriyaya hesablanmış mesaj verməsin”. Nazir real addımların atılması istiqamətində Ermənistandan fərqli mənzərə gördüklərini deyib.

Xatırladaq ki, ötən gün Ermənistanın Baş naziri Nikol Paşinyan Azərbaycana sülh müqaviləsi ətrafında öz təkliflərini təqdim etdiyini söyləmişdi. Nazir məhz həmin məzmunda müqavilə imzalamağa hazır olduğunu bildirmişdi. Paşinyan Azərbaycan Ordusunun ”Ermənistan ərazisi” adlandırdığı torpaqlardan çıxması tələbini də bir daha təkrarlamışdı.

**Siyasi şərhçi Aqşin Kərimov deyib ki, Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin yekun nöqtəyə çatması ləngidikcə və İrəvanın mövqeyindəki qeyri-müəyyənlik dərəcəsi artdıqca, Bakının hərbi əməliyyatlar planı danışıqlarda xəbərdaredici motiv kimi özünə yer qazanır. Analitik bildirib ki, Azərbaycanı müharibəyə maraq göstərməkdə ittiham etmək müdafiə və təhlükəsizliyə dair anlayışların zəifliyindən və ya qərəzdən irəli gəlir:** ”Başqa ölkələrin ərazisini qəsb etmək strategiyası məhz Ermənistanın ”yeni ərazilər üçün yeni müharibə” tezisində əks olunub. Ermənistan hələ də bu mənfur doktrinadan əl çəkdiyini bəyan etməyib və həmin tezisi revanşizmin alovlanması üçün qidalandırıcı hüquqi əsasa söykənməkdən imtina etmir. Fərz edək ki, Ermənistan həmin tezisi nəzəri olaraq arxa plana atıb, amma İrəvanın faktiki əlamətlərlə yapışdığı mövqelər, silah tədarükü üçün başqa ölkələrə müraciəti və erməni cəmiyyətindəki əhvali-ruhiyyənin qisasçılığa köklənməsi yeni müharibəyə hazırlıq elanı kimi görünür. Ermənistanın sülh üçün qurulan təpədən sürətlə üzüaşağı enişini göstərən digər cəhət onun sərhədlərin delimitasiyası məsələsində və Zəngəzur dəhlizinin açılmasında üzərinə düşən öhdəliklərdən qaçmasıdır. Qarabağda isə açıq qalan məsələlərin həllində Ermənistanın rolu qalmadığına görə deyə bilərik ki, İrəvan Azərbaycanın sərhəddən kənar bölgələrində münaqişə yarada bilmək potensialından məhrumdur. Ona görə də diqqəti sərhədlərin müəyyən edilməsi mövzusuna cəmləmək lazımdır. İrəvanın əsasən bu istiqamətlərdəki təxribatları regionu hərbi eskalasiya risklərinə sövq edir. Azərbaycan isə ehtimal olunan genişmiqyaslı hərbi təxribatların xüsusiyyət və məqsədlərini qiymətləndirərək mümkün təhlükələrə qarşı preventiv tədbirlər görür. Yəni Azərbaycan müharibə elan etmir və onun genişmiqyaslı hərbi əməliyyatlar apara biləcəyi ilə bağlı anonslar daha çox müdafiə siyasətinə əsaslanır”.

### Ermənistan əldən verdiyi imkanlarını geri qaytara bilməyəcək

**Ekspert vurğulayıb ki, Prezident İlham Əliyevin dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündəki çıxışları Ali Baş Komandanın mesajları kimi bəzi hərbi-strateji ştrixləri özündə birləşdirir:** ”Dövlət başçısının Qərbi Azərbaycanı tarixi Azərbaycan diyarı adlandırması Ermənistanla sülh gündəminin formalaşması üçün aparılan danışıqlarda yeni xətt kimi inkişaf edəcək. Prezident həmin ifadəni Qərbi azərbaycanlıların öz tarixi ərazilərinə qayıdışı kontekstində işlədir. Bu zaman geri dönüş proqramına dair əsasən iki versiya göz önündə canlana bilər. Azərbaycan Ermənistanda azərbaycanlı icması yaratmaqla buna nail olmağa çalışır. Sülh tezislərinə əsaslanan bu proqram reallaşsa, Ermənistanda demoqrafik nisbət həlledici şəkildə dəyişə bilər və azərbaycanlılar bir zamandan sonra say üstünlüyünə yiyələnə bilərlər. Azərbaycan sərhəddə genişmiqyaslı hərbi əməliyyatlar keçirir, Türkiyə strateji müttəfiqlik məntiqi ilə, Rusiya isə öz ambisiyaları prizmasından bu güc tətbiqinə dəstək verir. Birinci versiya ağlabatandır, amma İrəvan asanlıqla buna razılıq verməyəcək deyə Bakı ikinci variantı masaya qoyacaq. Bu, elə birinci versiyaya dair şərtlərin yerinə yetirilməsidir, lakin miqyası və motivi hərbi-siyasi xaraktercə daha böyük olacaq. 2022-ci ilin sentyabrında sərhədin Kəlbəcər, Laçın, Daşkəsən istiqamətlərindəki genişmiqyaslı toqquşmalardan sonra Azərbaycanın əldə etdiyi ərazi üstünlükləri perspektiv nəticələr üçün fövqəladə dəyərə sahibdir. Ali Baş Komandanın Qərbi Azərbaycan İcmasının nümayəndələri ilə görüşdə sentyabrdakı sərhəd əməliyyatının nəticələrinə yüksəkliklər kontekstində vurğu etməsi də diqqət çəkməyə bilməz. Hərbidə və müharibədə olanlar yüksəkliklərin gələcək əməliyyatlar üçün nə qədər böyük hərbi-strateji əhəmiyyət daşıdığını bilirlər”.

**A.Kərimova görə, sərhəddə yeni əməliyyatlar mümkündür və həmin yüksəkliklər Azərbaycanın içərilərinə doğru təhdidlərin qarşısında sipər olacaq:** ”Sülh danışıqlarından nəticələr hasil olunmasının axsaması fonunda hərbi əməliyyatlar aktuallaşır və Azərbaycan güc yolu ilə mütləq sülhün təmini planını aktual plan kimi saxlayır. Bakının Qərbi Azərbaycana qayıdış çağırışlarına Ermənistan cavab verməsə, üstəgəl, sərhəddə təxribatlara hazırlaşsa, o zaman eskalasiyaya görə məsuliyyət də onun üzərinə düşəcək. Bu dəfə eskalasiya baş versə, Ermənistan əldən verdiyi imkanlarını geri qaytara bilməyəcək və Bakıya verilən beynəlxalq dəstəklər fonunda İrəvan növbəti acizliyini yaşayacaq”.

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



# Tələbə köçürmələri "Axilles dabanı"na çevrilib

## Etibar Əliyev problemi qabartdı və çıxış yollarını göstərdi

**“Ali təhsilin təşkilində əsas məsələlərdən biri tələbələrin bir ali təhsil müəssisəsindən digərinə, yaxud ali məktəb daxilində bir ixtisasdan digərinə köçürülməsidir”. Bunu Milli Məclisin iclasında çıxışı zamanı Milli Məclisin deputatı Etibar Əliyev deyib. Deputat qeyd edib ki, tələbə köçürmələri ”Axilles dabanı”na çevrilib:**

”Sovet dövründə bu məsələ bir o qədər əhəmiyyət kəsb etmirdi. Abituriyent bir ali məktəbi seçə bilirdi və həmin ali məktəbə seçdiyi ixtisas üzrə imtahan verirdi. 1992-ci ildə Azərbaycanda test imtahanı tətbiq edildikdən sonra hər hansı ixtisas qrupu üzrə imtahan verən abituriyent 15-ə qədər ixtisas seçmək imkanı əldə etdi. Tələbələrin seçimlərinə uyğun olaraq müsabiqədən keçməsi və qəbul olmaq hüququ qazandığı ixtisas üzrə ali məktəblərə yerləşdirilməsi Dövlət İmtahan Mərkəzi tərəfindən yerinə yetirilir. Bu prosesdə ən çətin məqam tələbənin topladığı bala uyğun ali məktəblərin ixtisaslarının seçilməsidir. Aydın məsələdir ki, abituriyent seçim zamanı 1 ya 2 ixtisasa meyl göstərə bilər. Lakin təəssüflər olsun ki, bəzi abituriyentlər topladığı bala uyğun 1-ci olaraq hansı ixtisası seçmələrində tərəddüd edirlər. Çünki qorxu hissi var. Ona görə onlar ötənilki illərdə keçid balı aşağı olan ixtisasları yazırlar. Öz istədiklərini isə 2-ci, 3-cü, yaxud 4-cü göstərirlər”.

**Deputat bu məqamda abituriyentlərin yanlışlığa yol verdikləri qənaətindədir:** ”DİM yerləşdirilməsi başa çatdıqdan sonra bir kəsim abituriyent səhv etdiyini görür. Onun topladığı bal, arzusunda olduğu ixtisasın ən aşağı keçid balından çox olur. Bundan sonra tələbə və valideyn ixtisas seçimini düz aparmadıqlarına görə peşman olurlar. Bu zaman tədris prosesində arzusunda olduğu ixtisasa köçürülmə barədə düşünürlər. Köçürülmə isə ildə 2 dəfə olur. Qış və yay tətillərində. 2010-cu ilə qədər tələbələrin köçürülməsi ali məktəblər tərəfindən həyata keçirilirdi. Tələbələr köçürülmə üçün ali məktəb rəhbərinə müraciət edirdi. Rektorlar razılıq üçün Təhsil Nazirliyinə məktub göndərirdi. Nazirlik isə Prezident Administrasiyasının rəhbərinə müraciət edirdi. Administrasiyada Təhsil komissiyası fəaliyyət göstərirdi. Təhsil komissiyası dərs ili başlanana qədər öz qərarını verirdi. Burada subyektiv amillərə çox yer verilirdi. Narazılıqlar çox idi. 2013-cü ildə Mikayıl Cabbarov nazir təyin olunduqdan sonra bu sahədə ciddi dönüş yarandı. Köçürülmələrə elektron forma tətbiq edildi. Xüsusi portal yaradıldı. Köçürülmə tələbələr üçün əlçatan oldu. Belə ki, tələbənin qəbul prosesində topladığı bal köçürülmək istədiyi ixtisasın ən aşağı keçid balından yüksək olmalıdır. 2021-ci ildə təhsil naziri vaxt darlığını əsas gətirərək köçürmələri qış semestrində dayandırdı. Burda udan kim oldu, uduzan kim? Uduzan tələbə oldu. Tələbə qəbul olduğu ixtisasda 2 semestr oxumalı oldu. Nəticədə köçürülmə prosesində 7-8 fərq imtahanı yarandı. Tələbələr fərq imtahanı kimi yaranan fənlərə yazılmalı və yenidən imtahan verməli oldular. Bu da əlavə xərclər və təhsil ili müddətində ali məktəbi bitirməyə problem yaratdı. Sual verirəm, tələbə köçürülən zaman onun imtahan balı əsas götürülürsə, onun semestr ərzində dinlədiyi fənlərin nəticələri nəzərə alınmırsa, onda köçürülmə prosesinə nə üçün tətil müddətində başlanır?”.

**E.Əliyev məsələ ilə bağlı öz təklifini verib:** ”Bir ay əvvəldən elan verilməlidir ki, tətil başlanana qədər tələbələrin ərizələri təhlil olunsun və yerləşmə tətil müddətində aparılsın. Tələbələr semestr başlayanda, yəni fevralın 15-də köçürüldükləri ixtisasda təhsillərini davam etdirsinlər. Onu da qeyd etmək istəyirəm ki, beynəlxalq təcrübədə test imtahanı ilə qəbul aparılan ölkələrdə yerləşdirməni imtahan keçirən qurum aparmır. Əksər ölkələrdə tələbənin test imtahanında topladığı bal qəbul prosesində 35-40 faiz rol oynayır. Qalanı isə ali məktəblərin apardığı sınaqlar şəklində baş verir. Bizdə bu prosesi dürüst aparmaq üçün ali məktəblərə inam azdır. Lakin gələcəkdə bu sahədə islahatlara ehtiyac var. Xarici ölkələrdə təhsil alanların köçürülməsini isə ildə 1 dəfə aparmaq olar. Çünki araşdırmalar çox vaxt aparır”.

**İsmayıl**

# Sumqayıtda narazılıq...

## Sakinlərin hüquqları daha üstündür

**Sumqayıtın 20 Yanvar küçəsi, 16-cı məhəllə ev 9/28 ünvanında yaşayan beş ailə ərazidə tikinti işləri aparan şirkətlə razılığa gələ bilmir. Bununla bağlı APA TV süjet hazırlayıb. Şirkət sözügedən ünvanda inşa ediləcək yeni binadan mənzil və ya kompensasiya təklif etsə də, şərtlər sakinləri qane etmir.**



*Kompensasiya razı salmırsa, vətəndaş mənzilini tərk etməyə bilər*

Sakinlər deyirlər ki, ”Ayta LTD” şirkəti onlarla yekun razılığa gəlməsə də, aldığı digər mənzillərin içərisində söküntü işləri aparır. Şirkətdən isə şifahi olaraq bildirilib ki, yaşayış üçün yararsız evlər qanuni şəkildə sökülür. Qeyd olunub ki, ”Ayta LTD” Məhdud Məsuliyyətli Cəmiyyətinin istismar müddəti başa çatan, qəzalı vəziyyətdə - yaşayış üçün təhlükəli olan binaların sökülməsinə rəsmi qurumlardan icazəsi var və bütün işlər pilot layihə çərçivəsində aparılır. Vurğulanıb ki, sözügedən binada 7 sakinlə razılaşma olsa da, orada yaşayan 5 ailə ilə razılığa gələ bilməyiblər. Məsələ ilə bağlı hüquqşünas Şamil Paşayev isə bildirib ki, kompensasiya ödənilərkən vurulan zərər və bazar qiymətləri nəzərə alınmalıdır. Hüquqşünas onu da qeyd edib ki, hazırkı vəziyyətdə sakinlərin qaneedici məbləğdə kompensasiya ala bilmək üçün məhkəməyə müraciət etmək hüququ var.

**”Əmlak Ekspert Mərkəzi”nin rəhbəri Ramil Osmanlı ”Şərq”ə açıqlamasında bildirdi ki, cənab Prezidentin fərmanına uyğun olaraq evləri sökülən, mənzillərindən köçürülən vətəndaşlara 20 faiz əlavə kompensasiya ödənməlidir:**

- Təəssüf ki, vətəndaşların çoxu bu fərmandan, orada vətəndaşların hüquqlarının təminatından, Fərmanın məhz vətəndaşların mövqeyini müdafiə etdiyindən xəbərsizdir. Hər kvadrat metrə görə 1000 manat ödənməsi, əmlakın alqı-satqı dəyəridir. Amma harada, hansı ünvanda, neçə kvadrat metrlik yaşayış sahəsində yaşamalarından asılı olmayaraq vətəndaşlara bu tip söküntülər zamanı əlavə olaraq 20 faiz dəyərində kompensasiya ödənilməlidir. Vətəndaş tutalım bunu bilmir, fərmandan xəbərsizdir. İcra Hakimiyyəti ki bilir. İcra hakimiyyətləri Prezidentin imzaladığı Fərmana uyğun olaraq vətəndaşların mövqeyindən çıxış etməli, onun hüquqlarını qorumalıdır. Lakin təəssüf ki, bəzən biz İH-lərinin tikinti şirkətlərinin maraqlarına xidmət etdiyini görürük. Vətəndaşlar yaxşı olar ki, imzalanan Fərmanlardan, sərəncamlardan xəbərdar olsunlar. Hüquqlarını tələb etsinlər.

*R.Osmanlı qeyd etdi ki, bəzən mənzillərin uçuq-sökük, istismar müddətini başa vurmuş olması, yerləşdiyi ərazi bəhanə gətirilərək kirayə haqqı və mənzillərin alqı-satqısı aşağı qiymətlərlə aparılır. Bu, düzgün deyil və qanuna ziddir:*

- Vətəndaşın harada, necə yaşaması onun öz hüququdur. Lakin hansısa tikinti şirkəti ərazidə söküntü aparıb orada müasir yaşayış binası, yaşayış kompleksi tikir və bundan mənfəət əldə edirsə, vətəndaşın mənfəətini də nəzərə almalı və sakinləri razı salmalıdır. Ümumiyyətlə, hökumətin strategiyası belədir ki, söküntü işləri zamanı nağd ödəməyə deyil, əvəzlənməyə - mənzil əvəzinə mənzil variantına üstünlük verilsin. Çünki nağd ödənişlər zamanı bir sıra problemlər üzə çıxa bilir. Əvəzlənmə variantında da bəzən uyğunsuzluqlar olur. 3 otaqlı mənzil əvəzinə, yeni binada bir qədər geniş ölçüdə, amma 2 otaqlı mənzil təklif edilir. Yaxud da tikinti şirkətləri hiyləgərlik edərək satış üçün nəzərdə tutulan mənzillərin ölçüsünü böyük, əvəzlənmə edəcəkləri mənzilləri isə əvvəlcədən layihədə kiçik ölçülü göstərirlər. Nə qədər mənzili əvəzlənmə yoluyla təklif edəcəklərsə, həmin mənzillərin sahəsini kiçik müəyyənləşdirirlər. Tikinti şirkətlərinin mənfəət əldə etməsi nə qədər başadüşülən və qəbul olunandırsa, sakinlərin hüquqları istənilən halda üstündür. Sakinlər tamamilə haqlı olaraq köhnə mənzilini tərk etməyə bilər, nə qədər ki, istədiyi formada ona kompensasiya ödənməyib. Mənzili tərk etməmək və onu qane edəcək səviyyədə kompensasiya almaq vətəndaşın hüququdur.

**Məlahət Rzayeva**



## Qəhrəman oldu

### 19 dəqiqə öldü, 10 dəqiqəyə dirildi!

*(Əvvəli səh: 8-də)*

**Təqvimlər 2016-cı ili göstərəndə Mark Cahill və həyat yoldaşı Silvia Cahill yataq otağında sevimli seriallarına baxırdılar.**

İngiltərənin ən uzun müddət davam edən seriallarından biri olan ”Coronation Street”i izləyən cütlük yorğunluğuna yenik düşərək, saat gecə yarısını göstərdiyində ekran qarşısında yuxuya gedib. Ancaq çox keçmədən Mark Cahill gözlərini açdı və nəyinsə tərs getdiyini anladı. Həyat yoldaşı Silvia da onun yanında idi, amma vəziyyəti normal görünmürdü. Arvadının nəfəs almadığını görən Mark Cahill cəld ona ürək masajı etdi və təcili yardıma zəng edərək evlərinə təcili yardım çağırdı. Mark Cahill haqlı idi, çünki həyat yoldaşı həqiqətən o zaman infarkt keçirirdi və hər saniyə əslində Silvia Cahillin əleyhinə işləyirdi. Onun etməli olduğu arvadına əlləri ilə ürək masajı etmək idi. Mark Cahill həmin kritik anları belə təsvir edib: ”Həyat yoldaşımın üzünə baxmaq istədim, amma dəhşətə gəldim. Gözləri geniş açıq idi və o, göyə baxırdı. Nəfəs ala bilmədiyini anlayanda dərhal ürək masajı verdim və tibb işçilərini çağırdım. Danışdığım tibb işçiləri həyat yoldaşıma ürək masajı verməli olduğumu söylədi. Zamanla yeni əlinə alışan Mark Cahill, həyat yoldaşının gözləri önündə öldüyünü görüb qərarını verdi və nəhayət, yeni əli ilə Silvia Cahill üzərində ürək masajına başladı. Bir əli ilə telefonu tuturdu, digər əli ilə həyat yoldaşının sinəsinə ürək masajı edirdi. Masaj edən əl cəmi 4 il idi ki, ona məxsus idi. Ona bir ömür kimi davam edən bu anlar 10 dəqiqədən sonra bitdi. Yeni əli ilə həyat yoldaşına 10 dəqiqə ürək masajı edən Mark Cahill təcili tibbi yardım işçiləri evə çatanda dərindən nəfəs alıb. Tibb heyəti Silvia Cahilli şoka saldı və ürəyi yenidən işə sala bildilər. Bununla belə, əsl böyük uğur o zaman 57 yaşında olan və əslində klinik olaraq ölmüş həyat yoldaşına 10 dəqiqə ərzində təxminən 19 dəqiqə ürək masajı verən Mark Cahillə məxsus idi. Bir neçə dəqiqə ölümlə mübarizə aparan Mark Cahill nəhayət ki, uğur qazandı. Həyat yoldaşı qısa müddətdə sağaldı və o, ölkədə məşhurlaşdı. Cahill ölkədə əl transplantasiyası əməliyyatı keçirən ilk şəxs olmaqla yanaşı, uğurlu əməliyyatdan sonra transplantasiya edilmiş əlin köməyi ilə həyat yoldaşının həyatını xilas edən qəhrəmandır. Keçən bir neçə gündə yaşadıqlarını bir daha mətbuatla bölüşən Cahill, ”Özümü əla hiss edirəm. Biri mənim həyatımı xilas edərkən, mən də ən yaxın adamın həyatını xilas etdim” deyib.

**Turan**

## Kərə yağı adı altında bitki yağları satılır

### Təmiz, orqanik kərə yağları çox bahadır, 18-20 AZN civarında olmalıdır



**”Marketlərdə satılan saxta kərə yağları böyük ehtimalla palma yağından hazırlanıb, hidrogenlə doyuzdurularaq, əldə olunur”.**

*Bu barədə ”Şərq”ə qida texnoloqu, mütəxəssis Ağa Salamov deyib. Onun sözlərinə görə, məlum vəziyyət təkcə Gəncədə deyil, digər şəhərlərdə də hökm sürür:* ”Monitorinqlər aparılsa, analoji hal bir çox böyük müəssisələrdə aşkarlanacaq. Çünki kərə yağını istehsal etmək üçün litrlərlə südə ehtiyac var. Bəs fermalarımızda lazımi qədər süd almaq üçün iribuynuzlu heyvanlar kifayət edirmi? Üstəlik, onların yemləri də bahadır. Yağlılığından asılı olaraq, 20-25 litr arası süd sağılmalıdır ki, bir kiloqram kərə yağı əldə edilsin. Kərə yağları mağazalarda isə 10-14 manata satılır. Bunu deməkdə məqsədimiz sözügedən məhsulun qiymətini qaldırmaq deyil. Sadəcə bildirmək istəyirik ki, təmiz, orqanik kərə yağları çox bahadır.

18-20 AZN civarında olmalıdır. Amma vitrinlərdə ucuz qiymətə adıçəkilən yağlara rast gəlirik. Deməli, bunlar bitki tərkiblidir. Çünki məsələn, palma yağını 200-250 dərəcəyə qədər isidib, rəngini, dadını, qoxusunu dəyişmək mümkündür. Daha sonra ona hidrogen püskürdürlər və qatı bir maye - yağ əmələ gəlir. Ardınca üzərinə dadlandırıcı və rəngləndirici maddələr vurulur. Bu da təbii ki, insan orqanizmində mənimsənilmir, sovrulmur. Belə bitki yağlarından əldə edilmiş kərə yağları trans yağ sayılır. Çünki həmin o bitki yağını kərə yağına çevirmək üçün hidrogenlə doyuzdurmaq lazımdır.

Bunun üçün isə güclü - 180 dərəcədən yuxarı, 200-250 dərəcəyə qədər istiliyə ehtiyac var. İstiliyi təmin etdikdə hidrogen bağlarının yeri dəyişir. Belə olduğu halda trans (tərs) yağa çevrilir. Nəticədə insan orqanizmində şiş xəstəlikləri, xərçəng, mədəaltı vəzi, qaraciyər piylənməsi, şəkərli diabet, təzyiq kimi problemləri ortaya çıxarır.

Yalnız zeytun yağı trans yağa çevrilmir. İstiliyə dözümlüdür. Salatlar, tərəvəzlərin qızardılması, bişirilməsi, pörtlədilməsində istifadə edilir və insan orqanizmi üçün çox faydalıdır. AQTA-nın son vaxtlar fəaliyyəti qənaətbəxşdir. Bir mütəxəssis kimi bu məni sevindirir. Amma analoji yoxlamalar Bakı şəhərindən başlanmalı, daha sonra regionlarda təşkil edilməlidir. ”Əvvəl evin içi, sonra çölü təmizlənməlidir”.

*Qeyd edək ki, Gəncə şəhərində fəaliyyət göstərən marketdə kərə yağı adı altında bitki tərkibli yağların satıldığı aşkarlanıb. Bunu Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi bildirib.*

**Sücayət Mehti**

## ADU-da Beynəlxalq ərəb dili günü qeyd edilib





**Dekabrın 26-da Azərbaycan Dillər Universitetində Beynəlxalq ərəb dili günü münasibətilə tədbir keçirilib.**

”Şərq” xəbər verir ki, tədbirdə 12 ərəb dövlətinin Azərbaycandakı səfiri, universitetin professor-müəllim heyəti və tələbələr iştirak ediblər.

ADU-nun rektoru, akademik Kamal Abdulla tədbir iştirakçılarını salamlayıb, qonaqları universitetdə görməkdən məmnun olduğunu bildirib. Qeyd olunub ki, ərəb dili dünyanın qədim və zəngin dillərindən biridir. Ölkəmizdə də ərəb dilinə maraq böyükdür:

”Bu gün Beynəlxalq ərəb dili günü ilə bağlı olduqca vacib bir tədbirin iştirakçılarıyıq. Ərəb dövlətləri ilə ölkəmiz arasında sıx dostluq və strateji tərəfdaşlıq münasibətləri olduqca əhəmiyyətlidir. Biz hər zaman ərəb dövlətlərinin ölkəmizə olan mənəvi dəstəyini görmüşük. Bu mənəvi dəstək 44 gün davam edən Vətən müharibəsində də davam etdi”.

Rektor qeyd edib ki, Prezident İlham Əliyev hər zaman islam dininin sülh dini olduğunu bildirib, beynəlxalq tribunalardan ərəb ölkələrinin mövqeyini dəstəkləyib.

Mərakeşin ölkəmizdəki səfiri cənab Adel Embarş səmimi qarşılanmaya və qonaqpərvərliyə görə universitet rəhbərliyinə və kollektivə öz təşəkkürünü bildirib. Qeyd olunub ki, ərəb dili söz ehtiyatının genişliyi cəhətdən dünyanın zəngin dillərindən hesab edilir: ”Beynəlxalq ərəb dili günü 1973-cü ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assembleyasında qurumun rəsmi dili elan edilib. 2010-cu ildən etibarən 18 dekabr tarixi Beynəlxalq ərəb dili günü kimi qeyd edilir. Mütəxəssislər bu təşəbbüsün mədəniyyətlərarası dialoqun möhkəmlənməsinə və dünyanın müxtəlif dillərinin inkişafına yardım etdiyini bildirirlər. Hazırda dünyada 450 milyondan çox insan ərəb dilində danışır”.

Daha sonra ərəb dünyası haqqında videoçarx təqdim olunub. Tədbir tələbələrin hazırladığı bədii hissə ilə davam edib. Ərəb və Azərbaycan milli geyimləri nümayiş olunub. Sonda tədbir iştirakçıları ərəb mətbəxi ilə tanış olublar.

**Aygün**

## Azərbaycan bölgədə bütün nəhəng layihələrin müəllifidir

### İsrail Təhlükəsizlik Akademiyası: ”Cənab İlham Əliyev bütün dünyada sülhə və əmin-amanlığa öz töhfəsini verməkdədir”

**Dost və qardaş Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi doğum günü münasibətilə təbrik edirik. Azərbaycan Prezidenti hər zaman öz humanistliyi nəcibliyi yüksək dünya görüşü və dərin intellekti parlaq zəkası və güclü diplomatik bacarığı ilə bütün dünyada özünəməxsus yer tutmuş bir prezidentdir və bütün dünyada yüksək nüfuza və dərin hörmətə malik sayılıb-seçilən dövlət başçılarındandır.**

ISRAEL SECURITY ACADEMY

Azərbaycanın Avropa və Qərb ölkələri ilə ortaq enerji layihələrinin reallaşması və Azərbaycan iqtisadiyyatının yüksələn xətlə sürətlə inkişaf etməsi Prezident İlham Əliyevin zəngin diplomatiyasının parlaq daxili və xarici siyasətinin nəticəsidir. Prezident İlham Əliyev güclü diplomat praqmatik siyasətçi olmaqla bərabər güclü iqtisadçıdır. Bölgənin bütün nəhəng iqtisadi və enerji layihələrinin müəllifi və təşəbbüskarı məhz cənab İlham Əliyevdir. Qafqazda və Türk dünyasında heç bir layihə Azərbaycansız və İlham Əliyevsiz reallaşa və heç bir addım İlham Əliyevsiz atıla bilməz. Cənab İlham Əliyev nəinki öz ölkəsinin və xalqının hətta bütün bölgənin təhlükəsizliyi və əmin-amanlığı üçün əzmlə çalışmaqda bölgədə və bütün dünyada sülhə, əmin-amanlığa öz töhfəsini verməkdədir. Hazırda Prezident İlham Əliyevin apardığı uğurlu siyasət Azərbaycan iqtisadiyyatını daha da dayanıqlı edir və sürətli inkişafı təmin etməklə Azərbaycanın gələcəyi üçün daha da yüksək uğurlar və böyük nailiyyətlər yaradır.

Azərbaycan prezidentinin parlaq siyasəti hərbi sahədə də öz töhfəsini verib. Azərbaycan Ordusunun 44 günlük müharibədə işğalçı Ermənistan üzərində qələbə qazanmasında Prezident İlham Əliyevin ordu quruculuğu siyasəti əhəmiyyət kəsb etdi. Və məhz bunun nəticəsidir ki 2020-ci ilin 44 günlük İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusu Ermənistan ordusu üzərində analoqu olmayan qələbə qazandı. Hazırda məhz Prezident İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu siyasət nəticəsində Azərbaycanda güclü xalq-iqtidar və xalq-dövlət birliyi mövcuddur. Prezident İlham Əliyevə olan ümumxalq sevgisi və rəğbəti bütün Azərbaycan xalqını Azərbaycan dövlətinin və iqtidarının ətrafında sıx birləşdirib.

Təkcə Azərbaycan daxilində yox Azərbaycanın hüdudlarından çox-çox uzaqlarda yaşayan azərbaycanlıların və həmçinin Arazın cənubundakı bütün Güney azərbaycanlılarının cəm halda İlham Əliyevə böyük sevgisi vardır. 2020-ci ilin 44 günlük Qarabağ müharibəsində bu açıq-aşkar göründü. Hazırda dünyanın hər yerində Prezident İlham Əliyevə böyük sayğı və ehtiram vardır. Bunun da səbəbi İlham Əliyevin müdrikliyi humanistliyi yüksək insanpərvərliyi və öz siyasi xəttində ali və insani dəyərləri rəhbər tutmasıdır. Əsası dahi şəxsiyyət Heydər Əliyev tərəfindən qoyulan tolerantlıq və multikultural siyasət bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdə və bu ali dəyərlər daha da inkişaf etdirilməkdədir.

Azərbaycan daxilində yaşayan bütün etnik xalqlar və müxtəlif dini inanclar bir-biri ilə qardaşlıq və doğmalıq şəraitində yaşayır və günü-gündən də qardaşlaşmaqda və doğmalaşmaqdadır. Məhz İlham Əliyevin tolerantlıq və multikultural siyasəti Azərbaycanı dünyada ən nümunəvi ölkələr sırasına yüksəldib. Hazırda Azərbaycanda yaşayan və Azərbaycandan xaricə və İsrailə köçmüş bütün yəhudilər hər zaman Prezident İlham Əliyevə sonsuz sevgi və rəğbət bəsləyir. İsraildəki Avropa və ABŞ-dəki eləcə də Rusiyadakı azərbaycanlı - yəhudi icması cənab İlham Əliyevə böyük hörmət və ehtiram bəsləyir. Prezident İlham Əliyevin yüksək insanpərvərliyi və nəcib insani keyfiyyətlərə malik olması onu bir lider və bir şəxsiyyət olaraq hər zaman nəinki Azərbaycan daxilində hətta bütün dünyada sevdirir. Yəhudi xalqı da hər zaman cənab İlham Əliyevi özünün ən yaxın dostu hesab edir.

Azərbaycan hazırda dünya birliyində çox önəmli və əhəmiyyətli yerə malikdir. Dünyanın ən önəmli yüksək çəkiyə malik zirvə görüşlərində Azərbaycan Prezidenti xüsusi hömətlə qarşılanır. Bu cənab İlham Əliyevin uğurlu siyasəti və parlaq strategiyaları nəticəsində Azərbaycanın daha da güclənməsi və inkişaf etməsi nəticəsindədir.

Azərbaycanın İsraildə səfirlik açması da Prezident İlham Əliyevin tarixə qızıl hərflərlə yazılacaq uğurlu diplomatik addımıdır. Cənab İlham Əliyevin tolerant siyasəti uğurlu strateji addımları nəticəsində yəhudi xalqı ilə Azərbaycan xalqının hələ minillərə dayanan dostluğu və qardaşlığı Azərbaycan və İsrail dövlətinin dostluğu daha da da inkişaf edəcək və daha da möhkəmlənəcəkdir.

*Prezident İlham Əliyevi doğum günü münasibətilə təbrik edir uzun ömür və cansağlığı arzu edirik.*

**İsrail Təhlükəsizlik Akademiyasının Azərbaycan Respublikasındakı Nümayəndəliyi**

## "Ağ qiyamət" gəlib

### Buz bağlayan şəhərlərdə şok görüntülər ortaya çıxıb

*(Əvvəli səh: 8-də)*



**Kentukki ştatında Eliot çovğunundan üç nəfər ölüb, Ohayo ştatında isə avtomobil qəzalarında ən azı dörd nəfər ölüb, çoxlu sayda insan yaralanıb.**

Missuri, Tennessi, Kanzas və Kolorado ştatlarında həddindən artıq soyuq və ya hava şəraitinin səbəb olduğu avtomobil qəzaları nəticəsində digər ölümlər də qeydə alınıb.

Kanadada avtobusun buz bağlayan yola aşması nəticəsində 4 nəfər ölüb.

Xaosa sürüklənən Buffalonun ətrafındakı bəzi bazar və mağazalarda qarət hadisələri baş verib. Tərk edilmiş dükanlara girənlər gün işığında yemək və çoxlu əşyalar, o cümlədən televizor oğurlayıblar. Talan edilən əşyalar arasında tualet kağızları və kağız dəsmallar da var.

Medianın ”həyasız oğru” ləqəbini alan talançılar qar uçqunlarının üstündən keçərək mağazalara daxil olurlar. Soyğunçulardan biri dostları ilə oğurluq edərkən sosial media hesabından canlı yayıma çıxıb. Polis məmurları isə buz bağlamış şəhərə çevrilmiş Buffaloda qarət edilmiş məhsulları maşınlarına yükləyən bəzi oğruları mağazaların qarşısında yaxalayaraq həbs edib. Erie qraflığında 12 yanacaqdoldurma məntəqəsi talan edilərək sıradan çıxarılıb. ABŞ-də yüz minlərlə ev elektrik enerjisiz qalıb, Buffalo və ətrafında minlərlə ev qaranlıqdadır.

**Turan**




## Bakcell jurnalistlər üçün seminar keçirib

**Bakcell şirkəti jurnalistlər və blogerlər üçün ”Mobil telekommunikasiya: son nailiyyətlər və yeni texnologiyalar” mövzusunda iki günlük seminar təşkil edib.**

Mobil rabitəyə həsr olunmuş bu ənənəvi seminarın əsas məqsədi telekommunikasiya sahəsinin əsasları, müasir texnologiyalar, rəqəmsallaşdırma, innovasiyalar və son tendensiyalar barədə mətbuat nümayəndələrinin və blogerlərin məlumatlılığını artırmaqdır.

Tədbirdə ölkənin bir çox aparıcı media qurumlarını təmsil edən 30-dan çox jurnalist və bloger iştirak edib.

Bakcell əməkdaşlarının iştirakı ilə seminar çərçivəsində ”eSIM texnologiyası”, ”B2B ekosistemi və onun bazara təsiri”, ”VoLTE texnologiyası”, ”Mobil rabitə şəbəkəsinin iş prinsipi”, ”Qarabağda Bakcell şəbəkəsinin qurulması və genişlənməsi”, ”Qlobal telekommunikasiya trendləri: süni intellekt”, ”Korporativ sosial məsuliyyət strategiyası və onun cəmiyyətə faydası” kimi mövzular üzrə təqdimatlar və interaktiv sessiyalar keçirilib. Şirkət nümayəndələri jurnalistlərin telekommunikasiya sənayesi və yeni texnologiyalara aid suallarını cavablandırıb, fikir mübadilələri və müzakirələr aparıblar.

*Qeyd edək ki, Bakcell 2015-ci ildən başlayaraq hər il davamlı olaraq mətbuat üçün mobil telekommunikasiyaya həsr olunmuş seminarlar təşkil edir.*

## Oğlu Yalçın Rzazadənin vəsiyyətini açıqladı



**Mərhum Xalq artisti Yalçın Rzazadənin oğlu Mətin Rzazadə atasının son vəsiyyətini açıqlayıb.**

Bu haqda ”O üz” verilişində danışan Mətin atasının yolunu davam etdirəcəyini açıqlayıb:

”Atam iki il dövlətin dəstəyi ilə Türkiyədə müalicə olundu. Dünyasını dəyişməzdən 3 ay əvvəl mənə zəng vurdu. Gecə saat 10 idi. Dedi ki, niyə oxumursan, üzərində işləmirsən? Atam müalicə alan ərəfədə oxumağı atmışdım. Dedi ki, üç mahnı göndərəcəyəm və oxu. Onları heç yerdə eşitməmişdim. Son vəziyyəti o oldu ki, sınma, qırılma, möhkəm ol və hər şey yaxşı olacaq. Anası dünyasını dəyişəndə Yalçın müəllim qastrol səfərində idi. Ona deməmişdilər, gəldi öyrəndi və uzun müddət sənətinə ara verdi. İstəmədi ki, mən də o, dünyasını dəyişəndən sonra oxumağa ara verim”.

**Elan**

Abşeron rayonu, Xırdalan şəhəri, Heydər Əliyev prospekti 167, AAAF yaşayış kompleksi, 19 saylı küçə, bina C, mənzil 50, İsayev Elxan İnşalla oğluna məxsus evin müqaviləsi və maliyyə arayışları itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330
Tirajı: 1550 Sifariş: 3810



## İngiltərədə nəqliyyat xaosu yarandı

### Vətəndaşlar ölkə daxilində yalnız avtomobil yolu ilə səyahət etməyə məcbur qalıblar

**Böyük Britaniyada Miladdan sonrakı gündə dəmir-yol tətilləri səbəbindən nəqliyyat xaosu yaranıb.**

"Network Rail Stansted Express" ilə əlaqəli minlərlə Böyük Britaniya dəmir yolu işçisi dekabrın 24-ü axşam saat 18:00-dan 27 dekabr səhər 06:00-a qədər tətil edir. "Hitrou Ekspress" şirkəti də planlaşdırılan modernləşdirmə işlərini əsas gətirərək nəqliyyat xidmətləri göstərməkdən imtina edib.

Oxu.az xəbər verir ki, bu baxımdan Britaniya vətəndaşları ölkə daxilində yalnız avtomobil yolu ilə səyahət etməyə məcbur qalıblar. Böyük Britaniyanın dəmir yolu, dəniz və avtomobil nəqliyyatı həmkarlar ittifaqının rəhbərliyi tətillərə görə günahı və məsuliyyəti dəmiryolçularla müntəzəm danışıqlardan sonra "yoxa çıxan" hökumət üzərində görür. "Hökumət dəmir yolu sənayesinə iş təhlükəsizliyi, daha yaxşı iş şəraiti və daha yüksək əmək haqqı ilə bağlı danışıqlar aparmaq hüququ vermədikcə, tətilimiz davam edəcək", - deyə həmkarlar ittifaqının baş direktoru Mik Linç bildirib.

## Mask İrandakı etirazçılara dəstək verib



**Hazırda İranda "Starlink" peyk şəbəkəsinə bağlı 100-ə yaxın internet xidməti məntəqəsi fəaliyyət göstərir.**

Bakupost.az Güney Azərbaycan Teleqram kanallarına istinadən xəbər verir ki, bu barədə "Spice X" şirkətinin rəhbəri İlon Mask yazıb.

"İranda 100 "Starlink" cihazının işləməsinə yaxınlaşırıq", - deyə Mask ötən gün Twitter səhifəsində yazıb.

*Xatırladaq ki, sentyabrda İran hökuməti ölkədə interneti məhdudlaşdırmaq qərarına gəldikdən sonra Mask iranlıları peyk interneti ilə təmin edəcəyinə söz vermişdi.*

## Hadisə keçmiş həyat yoldaşı ilə barışır?



**Türkiyəli məşhur müğənni Hadisənin sonuncu paylaşımları diqqət çəkib.**

**Axşam.az xəbər verir ki, ifaçının hekayə bölümündə paylaşdığı fotolarda barmağında qalmaqallara səbəb olan üzüyün olduğu gözdən qaçmayıb. Hadisəyə iş adamı Mehmet Dinçerler tərəfindən evlilik təklifi edilərkən taxılan üzüyün boşanma əsnasında saxta olduğu iddia edilmişdi. Daha sonra Hadisənin üzüyü satdığı deyilirdi. Bir neçə saat əvvəl paylaşılan arxiv şəkillərdə aksesuarın yer alması tərəflərin barışması ilə bağlı şayiələrin yaranmasına səbəb olub.**

***Qeyd edək ki, Hadisə ilə Mehmet sentyabrın 30-da boşanıb.***

## 76 yaşlı müğənni ərə gedir

### Sevgilisinin 36 yaşı var



**Şer adı ilə tanınan erməni əsilli məşhur müğənni Şerilin Sarkisyan özündən 40 yaş kiçik sevgilisi, repçi Aleksandr Edvardsla evləndiyini açıqlayıb.**

**Lent.az xəbər verir ki, müğənni bu barədə "Twitter" hesabında məlumat yayıb.**

**"Pop ilahəsi" adlandırılan ifaçı iri brilyant qaşlı üzüyünün fotosunu paylaşaraq "Artıq sözə ehtiyac yoxdur, Aleksandr", - o yazıb.**

***Qeyd edək ki, daha çox pop rok janrında ifa edən Şer həmçinin, "Mask", "The Player", "Faithful" və digər filmlərə çəkilib.***

## 41 milyon 106 min manat qonorar alacaq

### Beyons Dubayda otellərin birində səhnəyə çıxacaq



**Məşhur amerikalı müğənni Beyons 4 ildən sonra ilk dəfə konsert verəcək.**

**Axşam.az xarici mətbuata istinadən xəbər verir ki, sənətçi yanvarın 21-də Dubayda otellərin birində səhnəyə çıxacaq.**

**O, bunun müqabilində 20 milyon sterlinq (təxminən 41 milyon 106 min manat) qonorar alacaq.**



# Qəhrəman oldu

## 19 dəqiqə öldü, 10 dəqiqəyə dirildi!





**Böyük Britaniyanın bir hissəsi olan Qərbi Yorkşir bölgəsində yaşayan Mark Cahill uzun müddət bar müdiri işlədikdən sonra xəstəliyi səbəbiylə çətin günlər yaşamağa başlayıb.**

Həmin vaxt 51 yaşı olan Cahill xəstəliyi səbəbindən sağ əlindən istifadə edə bilməyib. Xəstəxanaya müraciət edən adamın qarşısında yalnız bir variant var idi, o da əl transplantasiyası. İngiltərədə indiyədək heç kim əl transplantasiyası əməliyyatı keçirməyib. Lakin Cahill qərarlı idi.

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, həyatda qalmağa çalışan və sağlam günlərinə qayıtmaq istəyən kişi, nəhayət ki, adını ölkə tarixinə yazacaq və təxminən 50 min sterlinqə başa gələn bir əməliyyat keçirməyə qərar verdi. 27 dekabr 2012-ci il tarixində Lids Ümumi Cərrahiyyə Klinikasında təxminən 8 saat davam edən əməliyyat uğurla başa çatdı. Yeni sağ əli əldə edən Cahill, ona böyük maraq göstərən mətbuat mənsublarına müsahibələr verib, onu izləyən kameralara səmimi gülümsədi. Jurnalistlərə öz hekayəsini danışan və transplantasiyadan sonra yeni görkəmdə olan əlinin fotosunu nümayiş etdirərək kameralar qarşısında xoşbəxt pozalar verən Cahillin həyatı yenidən başlamışdı. Hər kəsi düşündürən sual transplantasiyadan sonra onun bütün əlini istifadə edə bilməsi idi. "Ümid edirəm. Hazırda tezdir və hələ heç nə hiss etmirəm. Amma barmaqlarımı hərəkət etdirə bilirəm", - Cahill bildirib.

Başqa bir sual isə onun yeni əli ilə tanış olmadığını hiss edib, etməməsi idi. Cahill bu suala "Baxıb hərəkət etdirəndə öz əlim kimi hiss olunur" - deyə cavab verib. 2012-ci ildə baş verən bu hadisə İngiltərədə uzun müddət gündəmin zirvəsindəki yerini qorumağa davam etdi. Amma hələ hər şey bitməmişdi. O zaman mətbuatın diqqət mərkəzində olan Cahill yenə tarixə keçən əməliyyat qədər danışılacaq bir xəbərlə gündəmə gələcəkdi.

*(Davamı səh: 7-də)*

**Turan**





# Super ağcaqanadlar kəşf edildi

### Həşərat dərmanları onlara təsir etmir

**Kamboca və Vyetnamda həşərat dərmanlarına qarşı güclü müqavimətə malik ağcaqanadlar kəşf edilib. Yaponiya Yoluxucu Xəstəliklər Milli İnstitutunun araşdırmaçıları bu kəşfin yoluxucu xəstəliklərin nəzarət altına alınmasına dair narahatlığı artırdığını söyləyib. "Şərq" "NTV.com.tr"yə istinadən bildirir ki, Aedes aegypti (A. aegypti) növünə aid ağcaqanadlar "sarı qızdırma", "dang qızdırması" və "Zika" virusunun əsas daşıyıcıları kimidir.**

Bu həşəratlar tropik və subtropik bölgələrdə geniş yayılır. Onları həşəratlara qarşı məlum dərmanlarla nəzarət altına almağa çalışırlar. Bu dərmanların bir çoxu sinir sistemini hədəf alaraq iflic və hətta ölümə də yol açan piretroidlər qrupunda yer alır. Ağcaqanadlarda piretroidə qarşı formalaşmış müqavimətin nə dərəcədə problem yaradacağı tam müəyyənləşməyib. İnstitut əməkdaşları Şinji Kasai və heyəti buna aydınlıq gətirmək üçün Qana, Tayvan, Vyetnam və İndoneziyada mövcud olan A.aegyrti növlü ağcaqanadlar üzərində tədqiqat aparıb. Ağcaqanadlar üzərinə adətən bu tip həşəratları 99 faiz məhv edən "Permetrin" adlı dərman sıxılıb. Bəzi ağcaqanadlar məhv olduğu halda, Vyetnamdan gətirilənlərin müqavimətini qırmaq mümkün olmayıb. Bu həşəratlardan yalnız 20 faizi məhv olub. Məlum olub ki, bu həşəratlar mutasiyaya uğrayanlardır. "Science Advances" elmi jurnalında yayımlanan materialda A.Aegypti növünə aid ağcaqanadların daha əvvəl məlum olmayan 10 alt növünün bu mutasiyalardan ən azı birinin daşıyıcısı olduğunun aşkarlandığını yazıb. L982W mutasiyasına sahib ağcaqanadların "Piretroid" dərmanına qarşı müqaviməti 100 dəfə artıqdır. Ş.Kasai bildirib ki, indiyədək istifadə edilən dərmanların yeni növ ağcaqanadlara qarşı təsirsiz olacağını bilməyimiz önəmlidir. Bu, alimlərə ağcaqanadlara qarşı daha təsirli dərman vasitələri kəşf etməli olduğunu göstərir.

**Məlahət**

## Teraflyu dərmanı ləğv edilir

### Satışı qadağan ediləcək dərmanlar bəlli olub




**ABŞ-da "TeraFlyu" və bəzi dərmanların qrip və soyuqdəyməyə təsir etmədiyi sübut olunub.**

"Medicina" xəbər verir ki, FDA "Benadryl" preparatının, "Mucinex" bəlğəmgətiricilərinin, "Theraflu"dərmanların satışının dayandırılmasını tələb edib.

Bu dərmanlar həkim resepti olmadan da satılır, lakin onların istifadəsi xəstələrin vəziyyətini bir o qədər yaxşılaşdırmır.

Azərbaycanda da məşhur olan bu dərman bir müddət idi tapılmırdı.

## "Ağ qiyamət" gəlib

### Buz bağlayan şəhərlərdə şok görüntülər ortaya çıxıb





**Aşağı hava təzyiqi və şiddətli tufanlarla ortaya çıxan fırtına ABŞ-də onlarla insanın ölümünə və bəzi şəhərlərin "döyüş meydanına" çevrilməsinə səbəb olub. Arktikadan cənuba doğru hərəkət edən Eliot çovğunu həftə sonu ABŞ və Kanadaya çatıb.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, Kvebekdən Texasa qədər uzunluğu 3200 kilometrdən çox olan çovğunun sərhədləri ABŞ-Kanada sərhədindəki Böyük Göllər bölgəsindən Meksika sərhədindəki Granda çayına qədər uzanır. Qərbdəki Qayalı dağlar və şərqdəki Appalachian dağları arasındakı ABŞ ştatlarında havanın temperaturu normadan xeyli aşağı düşüb və 250 milyondan çox insana təsir edib.

Çərşənbə axşamı səhər saatlarına olan məlumata görə, ABŞ və Kanadada ölənlərin sayı 50-ni keçib. Eliot qar fırtınasının "ağ qiyamət"ə çevrildiyi yer Nyu-York ştatının Buffalo şəhəri olub. Amerikanın Kanada ilə sərhədinə yaxın Eri gölünün sahilində yerləşən Buffalo şəhəri və onun ətrafı sözün əsl mənasında donub. Buffaloda və ətrafında yaşayan insanlar tamamilə donmuş evlərin, körpülərin və açılmayacaq qapıların görüntülərini sosial mediada paylaşırlar.

Evlərin buz bağladığı Buffalo şəhərində və yaxınlıqdakı Erie qraflığında komendant saatı tətbiq olunsa da, yüzlərlə sürücü qarda basdırılmış avtomobillərində qalıb. Şəhərdəki bütün yanğınsöndürən maşınlar çovğunda görünməz hala gəlib.

Görünüşün sıfır olması səbəbindən çətin vəziyyətdə qalan xilasedicilərə kömək etmək üçün Milli Qvardiyanın bölmələri səfərbər olunub.

Üstəlik, ABŞ rəsmilərinin "əsrin fırtınası" adlandırdıqları fəlakət səbəbindən yollarda təxminən 2 metr yarım hündürlüyündə olan qar yığınlarını adi qartəmizləyən maşınlarla təmizləmək mümkün olmayıb.

ABŞ-nin CBS telekanalına danışan ata, azyaşlı uşaqları ilə yolda qaldığını və bazar günü xilas olunmaq üçün 11 saat gözləməli olduğunu söyləyib.

Eri gölünün isti suları üzərindən keçərkən soyuq hava dalğasından nəm çəkməsi nəticəsində yaranan ekstremal hava şəraiti təkcə Buffaloda ən azı 28 nəfərin ölümü ilə nəticələnib. Ölənlərin sayının qar yığınları altında və ya qarda basdırılmış avtomobillərdə tapılan cəsədlərlə artacağı gözlənilir.

*(Davamı səh: 7-də)*

**Turan**